Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmış “Müasir Ginekologiya və Perinatologiyanın aktual məsələləri” jurnalı Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 May 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə Tibb elmləri üzrə “Azərbaycan Respublikasının dissertasiyalarının əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövrü elmi nəşrlərin siyahısı”na daxil edilmişdir.

Müasir ginekologiya və perinatologiyanın aktual məsələləri

12 №4/2025

ISSN 2411-3956

protokol № 07-R
12 №04/2025

Müasir ginekologiya və perinatologiyanın aktual məsələləri

Актуальные вопросы современной гинекологии и перинатологии

Actual questions of modern gynaecology and perinatology

Təsisçi: Ginekologiya və Perinatalogiyanın Inkişafına dəstək assosiasiyası

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
(qeydiyyat nömrəsi: 3802)

Baş redaktor:
Qurbanova Cəmilə

Editor in-Chief:
Gurbanova Jamila

Baş redaktor müavini:
Əmirova Aynurə

Associate Editor-in Chief:
Amirova Aynura

Elmi-redaktor:
Əlizadə Səmayə

Scientific Editor:
Alizadeh Samaya

Redaksiya Şurası:
Hüseynova Səadət (Azərbaycan)
Mahalov İslam (Azərbaycan)
Əliyev Şəmistan (Azərbaycan)
Nəsirov Teymur (ABŞ)
İsrafilbəyli Fidan (UK)
Lokşin Vyaçeslav Notanoviç (Qazaxıstan)
Rzaquliyeva Leyla (Azərbaycan)
Qurbanova Fərəh (Azərbaycan)
Shindler Adolt (ABŞ)
Ateş Karateke (Türkiyə)
Ahmet Namazov (İsrail)
Revar Boçorişvili (Fransa)
Piriyev Elvin (Almaniya)
Asatiani Tengiz (Gürcüstan)
Fatkullin İldar Faridoviç (Rusiya)
Mostovoy Aleksey (Rusiya)
Zanko Sergey (Belorusiya)
Brexman Grigory (İsrail)
Kira Ergeniy (Rusiya)

Editorial Board:
Huseynova Saadat (Azerbaijan)
Mahalov Islam (Azerbaijan)
Aliyev Shamistan (Azerbaijan)
Nasirov Teymur (USA)
İsrafilbayli Fidan (UK)
Lokshin Vyacheslav Notanovich (Kasachstan)
Rzaquliyeva Leyla (Azerbaijan)
Gurbanova Farah (Azerbaijan)
Shindler Adolt (USA)
Atesh Karateke (Turkey)
Ahmet Namazov (İsrail)
Revar Bochorishvili (France)
Piriyev Elvin (Germany)
Asatiani Tengiz (Georgia)
Fatkullin İldar Faridoviç (Russia)
Mostovoy Aleksey (Russia)
Zanko Sergey (Belorussia)
Brexman Grigoriy (İsrail)
Kira Evgeniy (Russia)

Ünvan: Bakı şəhəri, B. Ağayev küç., 118, AZ1065
tel.: +99412 510 09 52

Address: AZ1065, Baku, B. Akhayev str. 118,
phone: +99412 510 09 52

Redaktordan:

Hörmətli "Müasir Ginekologiya və Perinatologiyanın Aktual Məsələləri" jurnalının oxucuları!

Artıq jurnalımızın 2025-ci ilin dördüncü buraxılışı işıq üzü görür. Nəşr olunduğu illər ərzində biz oxuculara bir-birindən maraqlı icmal və orijinal məqalələr, elmi-tədqiqat işlərinin nəticələrini təqdim etmişik. Əvvəlki nömrələrdə yerli müəlliflərlə yanaşı Rusiya, Türkiyə, Ukraynadan olan kolleqalarımızın elmi işlərinin nəticələrini jurnalımızda çap etmişik. Jurnalın hazırkı buraxılışında Respublikamızda olan müxtəlif elmi-tədqiqat mərkəzlərinin təqdim etdiyi məqalələri dərc etməyi məqsədəuyğun bildik. Ümid edirik ki, bundan sonra da jurnala daxil edilən məqalələr oxucuların marağına səbəb olacaq və nəşrlərimiz geniş oxucu kütləsi qazanacaq.

"Müasir Ginekologiya və Perinatologiyanın Aktual Məsələləri" jurnalı bütün oxuculara öz elmi və praktik fəaliyyətində uğurlar və müvəffəqiyyətlər arzulayır.

Baş redaktor
Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru, "Ginekologiya və Perinatologiyanın İnkişafına Dəstək" İctimai birliyinin rəhbəri

Professor, tibb elmləri doktoru
Qurbanova Cəmilə Fazil qızı

Mündəricat:

HAMİLƏLİK ZAMANI SİDİK AXAR YOLLARININ İLTİHAB VƏ SİMPTOMSUZ BAKTERİURİYADA ERKƏN DOĞUŞLARIN RİSKİ
C.F. Qurbanova, N.A. Şahbazova, A.F. Əmirova, A.E. Hüseynova, S.E. İdrisova 9

TREATMENT APPROACH IN CASES OF THREATENED PRETERM LABOR
J.F. Gurbanova, N.A. Shahbazova, A.F. Amirova, T.Sh. Aliyeva, F.F. Huseynova, V.T. Samedova, K.Kh. Efendiyeva 16

BƏTNDAXİLİ İNKİŞAF LƏNGİMƏSİ İLƏ DOĞULAN UŞAQLARDA MƏRKƏZİ SİNİR SİSTEMİNİN ZƏDƏLƏNMƏSİNİN PATOFİZİOLOJİ MEXANİZMLƏRİ
Qəhrəmanlı Şəbnəm Qəhrəman qızı 24

FON VİLLEBRAND XƏSTƏLİYİNİN MAMALIQ ASPEKTİ
Z.F. Mahmudbəyova 31

YENİYETMƏ HAMİLƏLİYİN ƏSAS FAKTLARI
C.F. Qurbanova, A.F. Əmirova, M.N. Abdullayeva, E.K. Babayeva 39

HAMİLƏLİK ZAMANI SOMATİK OKSİMETRİYANIN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ
A.F. Əmirova 44

БИОМАРКЕРЫ ПЕРИПАРТАЛЬНОЙ КАРДИОМИОПАТИИ: РОЛЬ КАТЕПСИНА D И ПРОЛАКТИНА В ДИАГНОСТИКЕ И ПРОГНОЗЕ У БЕРЕМЕННЫХ ЖЕНЩИН
Н.М. Камилова, Ж.С. Ибрагимова 50

АНАЛИЗ РАСПРОСТРАНЕННОСТИ ПАТОЛОГИИ ШЕЙКИ МАТКИ
Ж.О. Бузумова, А.В. Любых, Э.Б. Нурманалиева, Г.А. Изтай 58

ВОДНО-ЭЛЕКТРОЛИТНЫЙ ГОМЕОСТАЗ И ВАЗОПРЕССИНЕРГИЧЕСКАЯ АКТИВНОСТЬ ПРИ ОСЛОЖНЕННОЙ БЕРЕМЕННОСТИ: КЛИНИКО-ПАТОГЕНЕТИЧЕСКИЕ АСПЕКТЫ
Н.Г. Гасанлы, Л.М. Рзакулиева 65

ANADANGƏLMƏ ANOMALİYASI OLAN SÜDƏMƏR UŞAQLARDA KRİTİK VƏZİYYƏTİN PROQNOZLAŞDIRILMASINDA PRISM III ŞKALA SİSTEMİNİN DİAQNOSTİK İNFORMATİVLİYİ
Əzizova Nərmin Akif qızı 69

Məqalələrin tərtibat qaydaları (əsas müddəalar)

1. Jurnalda yalnız indiyədək əvvəllər digər nəşrlərdə çap olunmamış məqalələr çap olunur. Redaksiyaya digər nəşrlərə istiqamətləndirilmiş işlərin göndərilməsinə icazə verilmir.

2. I səhifənin tərtibatı:

- məqalənin adı;
- müəllifi n (müəllifl ərin) adı, atasının adı və soyadı;
- Tabe olduğu qurumla birlikdə (Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və s.) işin yerinə yetirildiyi müəssisənin (müəssisələrin) adı, daha sonra müəssisənin yerləşdiyi ölkənin, şəhərin adı;
- müəllifi n soyadı və müəssisənin adı ilə yanaşı, yuxarıda müəllifl ərdən hər birinin işlədiyi müəssisənin adı göstərilməlidir.
- redaksiya üçün məlumatlar: bütün müəllifl ərin adı, soyadı, ata adı (tam şəkildə), elmi dərəcəsi, müəssisədə/ müəssisələrdə tutduğu vəzifə, indekslə birlikdə iş yerinin ünvanı, iş telefonu və elektron poçt ünvanları göstərilməlidir. İxtisarlara yol verilməməlidir.

3. Məqalənin adı qısa və informativ xarakterli olmalıdır. Məqalənin başlığında ixtisarların, həmçinin dərman preparatlarının ticari (kommersiya) adlarının, bioloji fəal əlavələrin, ərzaqların, qulluq vasitələrinin, tibbi ləvazimatların, diaqnostik qurğuların, diaqnostik testlərin və s. adlarının daxil edilməsinə icazə verilmir.

4. "Təcrübə həkiminə kömək" bölməsində orijinal məqalələrin, ədəbiyyat xülasələrinin və məqalələrin həcmi 10, təcrübə qeydləri və rəylər 4 səhifədən artıq olmamalıdır. Məqalədəki rəsmlərin və ya cədvəllərin sayı 3-dən artıq olmamalıdır. Redaksiya məqalələri ixtisar və redaktə etmək hüququnu özündə saxlayır.

Rules for submitting articles (Main regulations)

1. The magazine publishes articles that have never been issued in any kind of publications before. Editorial office doesn't accept articles which are already submitted to other publications.

2. Layout of 1st page:

- An article title;
- Author's (authors') first name, father's name and last name;
- Name of an enterprise(s) where task took place, as well as name of institution it belongs to (such as: The Ministry of Health of Azerbaijan Republic, ENTERPRISE's NAME), place of enterprise (including country and city);
- Besides author's last name and name of an enterprise, write down the name of enterprises where each author works
- Information for editorial office: authors' name, last name and father's name (full name), academic degree, academic rank, position at enterprise(s), full address (including postal code) of work station and e-mail addresses. Shortening is prohibited.

3. Article's title should be short and informative. It's not allowed to include any shortening, abbreviations, commercial names of medicine, name of biologically active food supplements, food, care products, medical equipment, diagnostic equipment, diagnostic tests and etc.

4. Original articles, bibliography summaries and articles in "To help the practitioner" section shouldn't be more than 10 pages. As well as practice notes and reviews shouldn't exceed 4 pages. In total an article shouldn't contain more than 3 images and/or graphs. Editorial office holds the right to shorten and edit articles.

Правила оформления статей (основные положения)

1. Опубликованию в журнале подлежат только статьи, ранее не публиковавшиеся в других изданиях. Не допускается направление в редакцию работ, которые отправлены в другие издания.

2. Оформление первой страницы:

- название статьи;
- инициалы и фамилия автора (авторов);
- наименование учреждения (учреждений), в котором (которых) была выполнена работа с указанием ведомственной принадлежности (Министерство здравоохранения Азербайджанской республики и т.д.), затем указываются город, где расположено учреждение и страна;
- рядом с фамилией автора и названием учреждения цифрами в верхнем регистре обозначается, в каком учреждении работает каждый из авторов
- сведения для редакции: указываются фамилия, имя, отчество (полностью), ученая степень, ученое звание, должность в учреждении/ учреждениях, рабочий адрес с почтовым индексом, рабочий телефон и адрес электронной почты всех авторов. Сокращения не допускаются.

3. Название статьи должно быть кратким и информативным. В заглавии статьи не допускается использование сокращений и аббревиатур, а также торговых (коммерческих) названий препаратов, биологически активных добавок к пище, продуктов, средств по уходу, медицинской аппаратуры, диагностического оборудования, диагностических тестов и т.д.

5. Orijinal məqalələr bu bölmələrə malik olmalıdırlar: müxtəsər giriş, tədqiqatın məqsədi, material və metod, nəticələr və müzakirələr, nəticə. Mətndə bütün bölmələr tünd şriftlə fərqləndirilməlidir.

6. Məqalə müəllif tərəfi ndən diqqətlə yoxlanılmalıdır. Riyazi formullarda bütün elementlərin dəqiq yerləşdirilməsi zəruridir: latın və yunan hərfl əri, sətirüstü və sətiraltı indekslər, hərflərin və rəqəmlərin yazılışına bənzər qeyd və sətri hərflər.

7. Cədvəllər ümumiləşdirilmiş və statistik baxımından işlənilmiş məlumatları əks etdirməlidir. Ölçü vahidləri ÖS-də (Ölçü Sistemində) təqdim edilmişdir. Hər bir cədvəlin öz nömrəsi və başlığı olmalıdır.

8. Məqalə mətnindəki biblioqrafik iqtibaslar kvadratşəkilli mörtərizələrdə müəllifi n sitatlarına müvafiq şəkildə (əlifb a üzrə deyil), həmçinin məqalədən əvvəl verilmiş ədəbiyyat siyahısına tam uyğun formada düzülür. Orijinal məqalələrdə müraciət olunan məqalələrin sayı 30-dan, ədəbiyyat xülasələrində 60-dan çox olmamalıdır. Mühazirələrdə və digər materiallarda 15-ə qədər olmalıdır. Müəllif ədəbiyyat siyahısında verilmiş məlumatların dəqiqliyinə görə məsuliyyət daşıyır.

9. İllüstrasiya materialı mətn üzrə və ayrıca faylda verilir. Fotolar və slaydlar TIFF, JPG formatında (yüksək keyfiyyətli) təqdim olunmalıdır. Fotoşəklin ölçüsü 1500x1500 pikseldən az olmamalıdır. Word proqaramında fotoşəkillər qəbul olunmur! Qrafik materiallar (sxemlər, diaqramlar, qrafiklər) Excel proqramında təqdim olunmalıdır. Şəklə ümümi ad verilir, sonra isə bütün hərfi və rəqəmsal mənalar izah olunur. Mikrofotoşəkillərə verilən adlarda rənglənmə və böyüdülmə metodunun göstərilməsi zəruridir.

5. Original articles should have these sections: brief introduction, purpose of research, material and method, results and discussions, conclusion. All sections should be diff erentiated by bold fonts.

6. Article should be well examined by author. In mathematical formulas all the elements have to be placed correctly: Latin and Greek lett ers, subscript and superscript indexes, uppercase and lowercase lett ers, similar writings of lett ers and numbers.

7. Graphs should show generalized and statistical information. Measurement units are given according to International System of Units (SI). Each graph should have its' own number and caption.

8. In an article bibliographic citations should be writt en in brackets, be ordered according to author's citations' order (not in alphabetic order) and be exactly same as the list of bibliography which author submits in advance to submitt ing an article. Cited sources should not be more than 30 in original articles, 60 in bibliographic summaries, 15 in lectures and in other texts. Author is responsible for accuracy of information in a list of bibliography.

9. Illustrations should be categorized according to each article and be submitt ed in separate file. Pictures and slide shows should be submitt ed in TIFF or JPEG format with highresolution. Size of a picture should be no less than 1500 pixels by 1500 pixels. Pictures are not accepted in a word file, but graphs (schemes, diagrams, graphs) should be submitt ed in an excel fi le. Picture should get a general name fi rst, then literal or other meanings of a picture have to be explained. In microphotographs' captions, coloring and zoom methods have to be written.

4. Объем оригинальных статей, обзоров литературы и статей раздела «В помощь практическому врачу» не должен превышать 10 стр., заметок из практики и рецензий – 4. В статье должно быть не более 3рисунков и/или 3 таблиц. Редакция оставляет за собой право сокращать и редактировать статьи.

5. Оригинальные статьи должны иметь следующие разделы: краткое введение, цель исследования, материал и методы, результаты и обсуждение, заключение или выводы. Все разделы должны быть выделены в тексте жирным шрифтом.

6. Статья должна быть тщательно выверена автором. В математических формулах необходимо четко разметить все элементы: латинские и греческие буквы, надстрочные и подстрочные индексы, прописные и строчные буквы, сходные по написанию буквы и цифры.

7. Таблицы должны содержать обобщенные и статистически обработанные данные. Единицы измерения даются в системе СИ. Каждая таблица должа иметь номер и заголовок.

8. Библиографические ссылки в тексте статьи располагаются в квадратных скобках в порядке цитирования автором (не по алфавиту) в строгом соответствии с пристатейным списком литературы. В оригинальных статьях допускается цитировать не более 30 источников, в обзорах литературы – не более 60, в лекциях и других материалах- до 15. Автор несет полную ответственность за точность данных списка литературы.

9. Иллюстративный материал прилагается по тексту и отдельным файлом. Фотографии и слайды должны быть представлены в форматах TIFF, JPG (высокого качества). Размер снимка не менее 1500x1500

10. Məqalə mətninin tərtibatına dair tələblər: Vərəq formatı – A4, şrift Times New Roman, keqlem 12, sətirlərarası interval - 1,5. Redaksiyaya göndərilən sənədin formatı “doc” və ya “docx”. Məqalələrin formatı: orijinallar üçün 10-dən artıq olmamaqla, 15- ədəbiyyat xülasəsi üçün, 11- mühazirələr üçün, 7- kliniki müşahidə üçün.

11. Dərman preparatlarının təsviri zamanı onlar haqqında ilk dəfə bəhs olunarkən fəal substansiyalar göstərilməlidir (beynəlxalq qeyri-patent adı – BQPA), kommersiya adı, istehsalçı şirkət, istehsalçı ölkə; bütün adlar və dozalar diqqətlə yoxlanılmalıdır.

12. Jurnaldakı məqalədən sitat verərkən– müəllifl ərin soyadı, adı, atasının adı (əgər müəllifl ərin sayı 6 və ya daha çoxdursa, bu halda ilk beş müəllifi n adı qeyd olunmalıdır və daha sonar Azərbaycan dilində olan mətnlərdə “və b.”, rus dilində olan mətnlərdə “и др.”, ingilis dilində olan mətnlərdə “et al.” yazılmalıdır), məqalənin tam adı, jurnalın qısaldılmış adı (ixtisarlar Medline üslubuna uyğun olmalıdır), ili, cildi, sayı, səhifələri (ilk və son) göstərilməlidir. Kitabdan (kitablar, monoqrafi yalar, konfrans materialları və s.) sitat göstərərkən – müəlliflərin soyadı, adı, atasının adı, kitabın tam adı, ölkəsi, nəşriyyatı və nəşr ili tam şəkildə göstərilməlidir.

13. Hər bir məqaləyə açar sözlərlə birlikdə xülasə də əlavə edilir. Xülasə məqalənin bölmələrinin məzmununu müxtəsər şəkildə əks etdirməlidir (tədqiqatın məqsədi, tədqiqatın materialı və metodları, nəticə). Xülasənin həcmi 600-1000 çap işarəsi olmalıdır.

14. Müəllif mütləq öz məqaləsini imzalamalıdır. Müəllif məqalənin sonunda öz imzasını qoymaqla redaksiyaya onu çap etmək hüququ verir, onun orijinallığını təmin edir və təsdiq edir ki, nə məqalənin üzü,

10. Text layout of an article: Page size – A4, font – Times New Roman, font size – 12, line and paragraph spacing – 1.5. Files sent to editorial offi ceshould be in .doc or .docx fi le format. Size of article: for original articles

– not more than 10 pages, for bibliographic summaries – not more than 15 pages, for lectures

– not more than 11 pages, for clinical observations – not more than 7 pages.

11. When you describe the medicine for the fi rst time throughout the article you have to mention active substances (International Non-proprietary Name – INN), it’s commercial name, manufacturer’s name, origin of manufacture (country’s name). All the names and dosage should be carefully checked.

12. When citing from magazine article – names, fathers’ name and last name of authors (if there are six or more authors, then names of first five authors should be written fully and the rest should be mentioned as “və b.” for articles in Azerbaijani, “и др.” For articles in Russian and “et al.” for articles in English), full name of an article, shortened name of magazine (abbreviations should be according to Medline format), issued year, volume number, issue number, pages (fi rst and last) should be well noted.

When quoting from book (books, monographs, materials for conference and etc.) text – last name, first name, father’s name of authors, full name the book, year of publishing, country and publication house it’s published in should be clearly stated.

13. Along with keywords article should also have a summary. Sections should be briefly included in summary (purpose of research, material and methods of research, result). Summary should be between 600 and 1000 characters.

14. Author has to sign at the end of his/her own article. By

пикселей. Фотографии в программе Word не принимаются! Графические материалы (схемы, диаграммы, графики) должны быть представлены в программе Excel. К рисунку дается общая подпись, затем объясняют все цифровые и буквенные обозначения. В подписях к микрофотографиям необходимо указать метод окраски и увеличение.

10. Требования к оформлению текста статьи: Формат листа –А4, шрифтом Times New Roman, кеглем 12, межстрочный интервал-1,5. Формат документа в отправке в редакцию- «. doc или ». docx. Объем статей не более 10 страниц – для оригинальной, 15- для обзора литературы, 11- для лекций, 7- для клинического наблюдения.

11. При описании лекарственных препаратов при первом их упоминании должны быть указаны активная субстанция (международное непатентованное название – МНН), коммерческое название, фирма-производитель, страна производства; все названия и дозировки должны быть тщательно выверены.
12. При цитировании статьи в журнале – фамилии и инициалы авторов (если авторов шесть и более, то указывают первых пять авторов и ставят «и др.» в русских статьях или « et al.» - в английских), полное название статьи, сокращенное название журнала (сокращения должны соответствовать стилю Medline), год, том, номер, страницы (первая и последняя). При цитировании книжного издания (книги, монографии, материалов конференций и др.) – фамилии и инициалы авторов, полное название книги, место, издательство и год издания.

13. К каждой статье прилагается резюме с ключевыми словами. Резюме должно отражать краткое содержание разделов статьи (цель исследования, материал и методы

nə ona əlavə edilmiş rəsmlər əvvəl heç bir yerdə çap olunmayıb və heç bir redaksiyaya göndərilməyib.

15. Redaksiya çap olunacaq materialların seçim, redaktə, çapa gedən materialların ixtisar və jurnala uyğunlaşdırılma hüququnu özündə saxlayır.

16. Göndərilən əlyazmalar geri qaytarılmır.

17. Tərtibat qaydalarına müvafiq olmayan məqalələrə baxılmır.

signing article author grants editorial office the right of publishing this article; he/she also assures that this article is original and copy of this article or any images used in this article have never been published or submitt ed to any publications before.

15. Editorial offi ce holds the right to choose articles for publishing, to edit, to shorten published articles and to reconcile according to the magazine.

16. Submitt ed manuscripts won't be returned.

17. Articles that don't meet submitt ing requirements will not be considered.

исследования, результаты исследования, заключение). Объем резюме 600-1000 печатных знаков.

14. Автор обязательно подписывает свою статью. Ставя под статьей свою подпись, автор тем самым передает редакции право на ее издание, гарантирует ее оригинальность и удостоверяет, что ни сама статья, ни рисунки к ней не были опубликованы ранее и не посланы для публикации в другие издания.

15. Редакция оставляет за собой право отбора материалов для опубликования, редактирования, сокращения публикуемых материалов и адаптации их к рубрикам журнала.

16. Присланные рукописи обратно не возвращаются.

17. Статьи, представленные с нарушением правил оформления, не рассматриваются.

HAMİLƏLİK ZAMANI SİDİK AXAR YOLLARININ İLTİHAB VƏ SİMPTOMSUZ BAKTERİURİYADA ERKƏN DOĞUŞLARIN RİSKİ

C.F. Qurbanova, N.A. Şahbazova, A.F. Əmirova, A.E. Hüseynova, S.E. İdrisova
Publik hüquqi şəxs Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı, Azərbaycan

Açar sözlər: *sidik yollarının infeksiyası, simptomsuz bakteruriya, infeksiya, hamiləlik, vaxtından əvvəl doğuş*

Sidik yollarının infeksiyaları (SYİ), o cümlədən simptomsuz bakteruriya (SB), hamiləlik dövründə tez-tez rast gəlinən ağırlaşmalardandır. Ədəbiyyat məlumatlarına əsasən, SYİ hamilə qadınların 2%-dən 15%-ə qədərini təsir edir, lakin son məlumatlar bu göstəricinin daha yüksək ola biləcəyini göstərir [1]. ABŞ-da aparılmış Milli Anadangəlmə Qüsurlar Tədqiqatının (41 869 qadın) məlumatları əsasında C.Y. Johnson və həmkarları [2] müəyyən etmişlər ki, qadınların 11%-dən 26%-ə qədəri hamiləlik dövründə SYİ diaqnozu və/və ya müalicəsi barədə məlumat vermişdir. SYİ-nin əhəmiyyəti yalnız anada (məsələn, sistit, pielonefrit) fəsadların yaranması ilə deyil, həm də döl üçün, xüsusilə də vaxtından əvvəl doğuş (VƏD) kontekstində risklərin artması ilə bağlıdır.

Hamiləlik dövründə simptomsuz bakteruriyanın (SB) skrininqi və müalicəsi bir çox ölkələrdə artıq uzun müddətdir ki, qəbul olunmuş praktikadır. Bu, tarixən aparılmış tədqiqatlarla əlaqədardır. Belə ki, SB müalicə olunmadıqda qadınların 30%-ində kəskin pielonefrit inkişaf edir ki, bu da VƏD riski ilə əlaqələndirilir [3]. SYİ-nin ana və yenidoğulmuş üçün yaratdığı risklərlə bağlı ədəbiyyatda ziddiyyətli nəticələr mövcuddur [4].

Gestasiya dövründə SYİ-nin erkən aşkarlanması və müalicəsinin vacibliyi çoxsaylı araşdırmalarla təsdiqlənmişdir və bir çox ölkələrin klinik protokollarına daxil edilmişdir. SYİ ilə hamiləliyin mənfi sonluqları, o cümlədən VƏD arasında əlaqə klinik praktikada uzun zamandır tanınır [5]. Lakin bu əlaqənin əsasını təşkil edən dəqiq mexanizmlər hələ də tam başa düşülməmişdir. SYİ-nin VƏD üçün risk faktoru olması bioloji baxımdan məntiqli sayılsa da, bu sahədəki tədqiqatların nəticələri müxtəlif və bəzən birbirinə ziddir. Bu isə mövcud sübutların geniş və sistemli şəkildə təhlilinə ehtiyac olduğunu göstərir.

Bu ədəbiyyat icmalının məqsədi — sidik yollarının infeksiyası və simptomsuz bakteruriyanın hamiləlik nəticələrinə təsiri ilə bağlı elmi mənbələrin araşdırılması olmuşdur.

2020–2024-cü illər arasında dərc olunmuş randomizə olunmuş klinik tədqiqatları və ədəbiyyat icmallarını aşkara çıxarmaq məqsədilə PubMed, Cochrane verilənlər bazası və ClinicalTrials.gov platformalarında onlayn axtarış aparılmışdır. Axtarış terminləri: sidik yollarının infeksiyası, simptomsuz bakteruriya, hamiləlik, vaxtından əvvəl doğuş. Ədəbiyyat axtarışı zamanı aşkarlanmış uyğun istinadlar da təhlilə daxil edilmişdir.

Hamilə qadınlarda sidik yolları infeksiyalarının (SYİ) inkişaf riski, progesteron hormonunun səviyyəsinin artması ilə bağlı fizioloji dəyişikliklərlə əlaqədardır. Yüksək progesteron səviyyəsi hamar əzələlərin boşalmasına səbəb olur, bu isə sidik axarlarında (ureterlərdə) peristaltikanın azalmasına və sidik kisəsinin tutumunun artmasına gətirib çıxarır. Bu dəyişikliklər fizioloji "hidronefroz"a və sidiyin durğunluğuna şərait yaradır. Bu risklər hamiləlik dövründə böyüyən uşaqlığın sidik axarlarını sıxması və böyrək funksiyasının artması ilə daha da güclənir [1].

Ən çox rast gəlinən törədici *Escherichia coli* bakteriyasıdır. Bununla yanaşı digər qrammənfi bakteriyalar (*Klebsiella spp., Proteus spp., Pseudomonas aeruginosa*) və qrammüsbət kokklar (Enterococcus faecalis, Staphylococcus saprophyticus) da infeksiyada iştirak edə bilər [1]. Bu, **M.A. Belete və əməkdaşlarının** araşdırması ilə təsdiqlənmişdir [6]. Müəlliflərin müəyyən etdiyi ən geniş yayılmış uropatogenlər aşağıdakılar olmuşdur: *Escherichia coli* (55%), *Klebsiella pneumonia* (14%) və *Staphylococcus aureus* (8%) [6]. Bundan əlavə, *Proteus mirabilis*, *Enterococcus spp.* və *Pseudomonas aeruginosa* da tez-tez müəyyən edilir [6].

Tam sağlam qadınlarda (hamilə və ya qeyri-hamilə), sidik kateteri olmayan, sidik yollarında anatomik anomaliyası və immunosupressiyası olmayanlarda yalnız enterokokların uropatogen potensialı şübhə doğura bilər. Onlar sidik kisəsindən alınan nümunələrdə nadir hallarda aşkarlanır, baxmayaraq ki, hamilə olmayan qadınlarda kəskin sistit zamanı orta axar "təmiz" sidik nümunələrində tez-tez rast

gəlinirlər. Bu, onların ya çirkləndirici, ya da uretra kolonizatorları ola biləcəyini göstərir [1].

Hamiləlik dövründə SYİ törədən bakteriyalar, adətən hamilə olmayan qadınlarda infeksiya yaradanlarla eynidir. Sidik axarlarının genişlənməsi hamilə qadınların 90%-də baş verir və bu hal doğuşa qədər davam edir (hamiləliklə əlaqəli hidronefroz). Sidik kisəsinin həcminin artması, sidik kisəsi və sidik axarlarının tonusunun azalması nəticəsində sidik durğunluğu və uretrovezikal reflüks yaranır. Bu dəyişikliklər böyrəklərin bakterial reflükslərə qarşı müdafiəsini azaldır. Sidik durğunluğu zamanı bakterial rezervuarlar yarana bilər. Qan həcminin artmasına cavab olaraq qlomerulyar filtrasiya sürəti və diurez artır. Diurezin artması və sidik axarlarının tonusunun azalması nəticəsində sidik yollarında genişlənmə baş verir: ureterlər, böyrək ləyənciyi və kasacıqlar genişlənir. Bu proses hamiləliyin 10-cu həftəsində başlayır, hamiləlik boyu davam edir və doğuşdan sonra 6–12 həftə ərzində geriyə dönür. Progesteron həmçinin sidik axarının hamar əzələsini boşaldaraq sidik durğunluğuna səbəb olur [1, 6].

Sidik, sidik kisəsi və sidik axarları pH, uretrovezikal klapan və digər immunoloji və selikli baryerlər səbəbindən normalda mikroblardan, viruslardan və göbələklərdən azaddır. SYİ-dən qorumanın əsas mexanizmi — sidik kisəsinin sidik ifrazı zamanı tam boşalmasıdır. Sidik yolları infeksiyasının patofiziologiyasına müxtəlif bakteriyalar təsir edə bilər; bu bakteriyalar sidik yollarına daxil olmaq qabiliyyətinə malikdir. Vaginal, perianal və nəcis florasından gələn bakteriyalar uretra girişinə yayılıb çoxalmağa başladıqda infeksiya inkişaf edir [1].

İnfeksiyanın patogenezi bağırsaq və ya dəri mənşəli bakteriyaların periuretral nahiyəni kolonizasiya etməsi ilə başlayır. Anatomik xüsusiyyətlər (qısa uretra, anusla yaxınlıq) səbəbindən qadınlarda yuxarı qalxan infeksiya riski daha yüksəkdir. Bakteriyaların sidik yolları epitelinə yapışmasının əsas mexanizmi — fimbrilərin (adhezivlərin) olmasıdır. Xüsusilə *E. coli* bakteriyasında olan P tipli fimbrilər uroteliyə möhkəm yapışmanı təmin edir.

Sidik yollarının normal qoruyucu baryerlərinə aşağıdakılar daxildir:

- regulyar sidik ifrazı (bakteriyaların mexaniki yuyulması),
- sidiyin turşuluğu,
- uropitelin antibakterial xüsusiyyətləri (o cümlədən interleykinlər və antimikrob peptidlərin ifrazı),
- anadangəlmə və qazanılmış immun müdafiə komponentləri.

Bəzi patogen mikroorqanizmlər, məsələn *Proteus spp.*, ureaza fermenti sintez edir, bu isə sidikdə olan karbamidi ammonyaka parçalayaraq sidiyin pH-nı artırır, nəticədə struvit daşları yaranır və uroepitel funksiyası pozulur. Bakteriyalar həmçinin biofilm formalaşdıra bilər ki, bu da onları immun sistem və antibiotiklərə qarşı davamlı edir.

Bakteriyalar sidik yollarının selikli qişasına daxil olduqda anadangəlmə immun sistem aktivləşir:

- epitel hüceyrələri bakterial nümunələri Toll-oxşar reseptorlarla (TLR) tanıyır;
- proiltihab sitokinlərinin (IL-6, IL-8, TNF-α) istehsalı artır;
- neytrofillər, makrofaqlar və digər iltihab hüceyrələri cəlb olunur və bu da klassik klinik simptomlara gətirib çıxarır: dizuriya, poliuriya, çanaqüstü ağrı, hematuriya, hərarət (pielonefrit zamanı).

Böyrək toxuması prosesə qoşulduqda, çapıqlaşma riski ilə müşayiət olunan kəskin pielonefrit inkişaf edir ki, bu da xüsusilə uşaqlarda və hamilə qadınlarda təhlükəlidir.

İnfeksiyanın əsas yayılma yolu yuxarı qalxan yoldur: uretradan → sidik kisəsinə → sidik axarlarına → böyrəklərə. Hematogen yol daha nadir hallarda rast gəlinir və adətən ağır sistemik infeksiyalar və bakteriemiya (məsələn, stafilokokk infeksiyası) zamanı müşahidə olunur.

SYİ inkişafı riskini artıran vəziyyətlər: anatomik anomaliyalar (reflüks, obstruksiyalar); hamiləlik (hormonal dəyişikliklər, sidik axarlarının mexaniki sıxılması); şəkərli diabet; sidik kisəsinin kateterizasiyası; immunosupressiya [1, 7, 8].

Sidiyin axınının pozulması və ya onun bakterisid xüsusiyyətlərinin azalması mikroorqanizmlərin çoxalması və davamlılığı üçün şərait yaradır.

Sidik yolları infeksiyası fonunda vaxtından əvvəl doğuşlar (VƏD) iltihabi kaskad, hormonal balansın pozulması və uşaqlığın yığılma aktivliyinin artması ilə bağlıdır. Xüsusilə pielonefrit və simptomsuz bakteruriya sistemik iltihabi reaksiyaya səbəb ola bilər ki, bu da fetoplasentar kompleksi təsirləndirir.

Patogenetik hadisələrin ardıcıllığı:

1. Sidik yollarının infeksiyası
   - *Escherichia coli, Proteus, Klebsiella* və s.
   - Lokal iltihab → sistit, pielonefrit, bakteruriya
2. Sistemik iltihabi cavab
   - Proiltihabi sitokinlərin ifrazı: *IL-1β, IL-6, TNF-α*

- Leykositlərin və prostaglandinlərin (PGE2, PGF2α) aktivləşməsi

3. Uşaqlıq yığılmalarının aktivləşməsi
   - Sitokinlər uşaqlıqda prostaglandin istehsalını artırır
   - Progesteron çatışmazlığı / reseptorların funksional blokadası
   - Miometriumun (uşaqlıq əzələsinin) həssaslığının artması
4. Uşaqlıq boynunun yetişməsi və açılması
   - Metalloproteinazaların aktivliyinin artması
   - Uşaqlıq boynunun yumşalması və qısalması
   - Uşaqlıq daxilində təzyiqin artması
5. Döl qişalarının cırılması
   - İltihab təsiri ilə döl qişalarının vaxtından əvvəl cırılması
6. Doğuş fəaliyyətinin başlanması
   - Aktiv uşaqlıq yığılmaları
   - Uşaqlıq boynunun genişlənməsi
   - Vaxtından əvvəl doğuş

Hamiləlik dövründə sidik yolları infeksiyalarının (SYİ) inkişaf riskini artıran amillərə gənc ana yaşı, ilk doğuş, şəkərli diabet, əvvəlki SYİ halları, anatomik anomaliyalar, qidalanma çatışmazlığı və aşağı sosial-iqtisadi status daxildir. Cinsiyyət orqanlarının gigiyenasına riayət etmə praktikasının SYİ riski ilə əlaqəli olduğu bildirilmişdir, lakin bu barədə elmi sübutlar azdır [1].

Əlavə risk faktorları:

- Hamiləlik dövründə simptomsuz bakteruriya (xüsusilə müalicə olunmadıqda);
- Plasentar qan axınının pozulması;
- Decidua toxumasının infeksion zədələnməsi.

İnfeksion-iltiihabi biomarkerlər:

- C-reaktiv zülalın (CRP) artması;
- Qanda leykositlərin artması;
- Servikal ifrazatdadə fibronektin səviyyəsinin yüksəlməsi.

İnfeksiya sistemik iltihabi reaksiya da yarada bilər. Bu zaman sitokinlər ifraz olunur, onlar isə uşaqlığın yığılma qabiliyyətini və uşaqlıq boynunun yetişməsini stimullaşdırır. Hətta simptomsuz bakteruriya belə sidik yollarında və ətraf toxumalarda lokal iltihab yarada bilər. Bu iltihab genişlənərək uşaqlıq və uşaqlıq boynunu qıcıqlandıra, nəticədə uşaqlıq yığılmaları və uşaqlıq boynunun açılması baş verə bilər [9].

Orqanizmin infeksiyaya reaksiyası iltihabi sitokinlərin və xemokinlərin ifrazını əhatə edə bilər. Bu molekullar qan dövranı ilə yayılaraq uşaqlıq aktivliyini stimullaşdıra bilər və bu da vaxtından əvvəl doğuşa (VƏD) səbəb ola bilər. SYİ-yə səbəb olan bakteriyalar adətən sidik yolları ilə məhdudlaşsa da, onların digər sahələrə — məsələn, amnion kisəsi və plasentaya keçmək ehtimalı var. Bu invaziya immun reaksiyaya, nəticədə VƏD-in başlanmasına səbəb ola bilər.

Simptomsuz bakteruriya (SB) — heç bir klinik simptom müşahidə olunmadan və piyuriya (sidikdə irin) olub-olmamasından asılı olmayaraq, bir və ya bir neçə bakteriya növünün ≥103 KOE/ml miqdarında sidik nümunəsində müəyyən olunması ilə xarakterizə olunur [9].

Hamilə qadınlar arasında simptomsuz bakteruriyanın yayılması yüksək gəlirli ölkələrdə 2–7% təşkil edir, lakin Nigeriyada bu göstərici 25–45%, Efiopiyada isə 21%-dir [10]. Müalicə olunmadıqda, hamilə qadınların 86%-ində simptomsuz bakteruriya qalıcı olur.

Müalicə olunmayan SB-nin mənfi ana və yenidoğulmuş nəticələrlə, xüsusilə vaxtından əvvəl doğuşla əlaqəli olduğu qeyd olunmuşdur. Bununla belə, SB-nin doğuş nəticələrinə təsiri ilə bağlı sübutlar ziddiyətlidir — tarixi və bəzi müasir tədqiqatlar VƏD ilə əlaqəni göstərsə də, ümumi nəticələr hələ də yekdil deyil [3, 11].

Vaxtından əvvəl doğuşlar — 37 həftəlik hamiləlik tamamlanmadan baş verən doğuşlar — qlobal ictimai səhiyyə üçün mühüm problemdir. 2020-ci ildə dünyada VƏD yayılmasının 9,9% (etibarlılıq intervalı 9,1–11,2%) olduğu təxmin edilmiş, bu da təxminən 13,4 milyon vaxtından əvvəl doğulmuş canlı doğumu təşkil etmişdir (12,3–15,2 milyon aralığında) [12].

VƏD-in yaranma səbəbi çoxfaktorludur və genetik, ekoloji və sosial-demoqrafik amillərin kompleks qarşılıqlı təsirini əhatə edir. Bu risk amilləri arasında amniotik maye və aşağı genital yolların infeksiyaları, habelə hamiləlik dövründə baş verən iltihab halları, doğuşun başlanmasında və VƏD-in inkişafında mühüm rol oynaya bilər [13, 14].

Mövcud sübutlar göstərir ki, amniotik boşluğa mikrob keçməsi, anada sidik-cinsiyyət sistemi infeksiyaları və sistemik iltihabi reaksiyalar, ana və döl arasında olan immun tolerantlıq balansını poza bilər və bu da vaxtından əvvəl doğuşa gətirib çıxara bilər. Yeni məlumatlara əsasən, sidik yolları infeksiyaları VƏD patogenezində bir neçə mümkün mexanizm vasitəsilə iştirak edə bilər. Birincisi, aşağı sidik yollarından yuxarı reproduktiv orqanlara — o cümlədən uşaqlığa və döl qişalarına bakterial yayılma, lokal iltihaba və son nəticədə doğuşun başlamasına səbəb ola bilər [15].

Bundan əlavə, SYİ proiltihabi sitokinlərin və xemokinlərin ifrazı ilə xarakterizə olunan sistemik iltihabi reaksiyalara səbəb ola bilər və bu da uşaqlığın yığılma qabiliyyətini və uşaqlıq boynunun yetişməsini stimullaşdırır [16].

E. Wang və digərləri tərəfindən aparılan sistematik icmal və metaanalizdə hamiləlik dövründə SYİ ilə VƏD riski arasındakı əlaqə qiymətləndirilib [17]. Müəlliflər bir neçə məlumat bazasında müşahidə tədqiqatlarını axtarıblar və onları VƏD-əsaslı (VƏD olan və olmayan qadınlarda SYİ yayılmasını müqayisə edən) və SYİ-əsaslı (SYİ olan və olmayan qadınlarda VƏD tezliyini müqayisə edən) olaraq təsniflərdiriblər. Stata 17.0 proqramında təsadüfi təsir modeli ilə ümumi və düzəldilmiş odds nisbətləri (OR) 95% etibarlılıq intervalları (CI) ilə hesablanıb. Alt qrupların analizi, həssaslıq analizi və kumulyativ analiz heterojenliyi aşkar etmək üçün aparılmışdır.

Ümumilikdə 30 tədqiqat (32 məlumat dəsti) daxil edilmişdir, 249 810 pasiyent və 2 626 985 nəzarət subyekti iştirak etmişdir. Metaanaliz nəticəsində hamiləlik zamanı SYİ ilə VƏD riski arasında əhəmiyyətli pozitiv əlaqə müəyyən edilmişdir (OR 1,92; 95% CI 1,62–2,27). Alt qrup analizi göstərmişdir ki, bu əlaqə həm VƏD-əsaslı (OR 2,01; 95% CI 1,58–2,56), həm də SYİ-əsaslı (OR 1,79; 95% CI 1,42–2,26) araşdırmalarda əhəmiyyətlidir. Lakin Egger testi nəticəsində nəşr qərəzliyi müşahidə olunmuşdur (p = 0,020), və bütün daxil edilmiş tədqiqatlarda əlamətdar heterojenlik mövcuddur (p < 0,001).

Bu nəticələr hamilə qadınlarda SYİ-nin erkən aşkarlanmasının və effektiv müalicəsinin VƏD riskini və əlaqəli fəsadları azaltmaq baxımından kritik əhəmiyyətini vurğulayır. Lakin nəticələrin şərhində nəşr qərəzliyinin və heterojenliyin təsiri nəzərə alınmalıdır. Əsas mexanizmləri daha dərindən anlamaq və yüksək riskli hamilə qadınlar üçün hədəf müdaxilələr hazırlamaq məqsədilə əlavə araşdırmalara ehtiyac vardır [17].

N. Pangastuti və digərləri [18] retrospektiv kohort tədqiqatın nəticələrini təqdim etmişlər. Müəlliflər 2015-ci ilin yanvar-dekabr ayları ərzində pasiyentlərin tibbi kartları əsasında SYİ və VƏD yayılmasını təhlil etmişlər. Tədqiqatın seçmə qrupu 45 VƏD olan pasiyentin tibbi kartlarını əhatə etmişdir. Bu qrupdan yalnız 25 pasiyent (55,6%) sidik analizindən keçmişdir. Bu 25 nəfərdən 60%-də SYİ aşkar edilmişdir və onların hamısında VƏD baş vermişdir. Nəticədə 15 pasiyentin 13-də (86,7%) bakteruriya simptomsuz olmuşdur. Lakin bakteruriya ilə VƏD arasında statistik əhəmiyyətli əlaqə aşkar edilməmişdir (p = 0,581).

Çoxamilli logistik reqressiya analizi göstərmişdir ki, VƏD birbaşa SYİ (p = 0,704), gestasiya yaşı (p = 0,274), SYİ simptomları (p = 0,699), SYİ tarixçəsi (p = 0,999) ilə əlaqəli deyildir. Bu tədqiqatın nəticələri göstərir ki, VƏD SYİ ilə əlaqəli olmaya bilər. Müəlliflər digər səbəblərin araşdırılmasını tövsiyə edirlər. Lakin VƏD olan pasiyentlərdə simptomsuz bakteruriyanın aşkarlanması, bunun potensial risk faktoru ola biləcəyini göstərir. Bu səbəbdən hamilə qadınlar üçün rutin sidik analizinin aparılması profilaktik tədbir kimi tövsiyə olunur.

M. Abdea və digərlərinin [19] sistematik icmalının məqsədi müalicə olunmamış/müalicə olunmuş simptomsuz bakteruriya (SB) (eyni bakteriyaların 103 KOE/ml səviyyəsində iki ardıcıl sidik mədəniyyətində simptomsuz aşkarlanması) ilə hamiləlik nəticələri arasındakı əlaqəni araşdırmaq olmuşdur. On dörd tədqiqat bu icmala daxil edilmişdir. SB ilə vaxtından əvvəl doğuş (VƏD) arasındakı əlaqə barədə ziddiyyətli nəticələr əldə edilmişdir. Müəlliflər hesab edirlər ki, bu mövzuda daha müasir və yüksək keyfiyyətli tədqiqatlara ehtiyac vardır.

Hamilə qadınlar arasında bakteruriyanın (simptomatik və simptomsuz) yayılma nisbəti və onun VƏD ilə əlaqəsi qiymətləndirildikdə, məlum olmuşdur ki, bakteruriya bəzi bölgələrdə gözlənildiyindən daha çox yayılmışdır və VƏD ilə əhəmiyyətli əlaqəyə malikdir [20].

HRW Piazzolla və digərləri [8] apardıqları sistematik icmalda hamiləlik dövründə əhəmiyyətli bakteruriya ilə vaxtından əvvəl doğuş (VƏD) arasında əlaqə olduğunu müəyyən etmişlər. Lakin müəlliflər qeyd edirlər ki, mövcud sübutların keyfiyyəti bu əlaqənin yalnız yanaşı gedən faktorların nəticəsi olub-olmadığını müəyyən etmək üçün kifayət deyil. Hamiləlik zamanı bakteruriyanın aktiv şəkildə aşkarlanmasını dəstəkləyən yüksək keyfiyyətli sübutlar hələ ki, mövcud deyil.

V. Sukchalermchai və digərlərinin [21] məlumatına əsasən, Taylandda hamilə qadınlar arasında simptomsuz bakteruriya ilə VƏD arasındakı yayılma nisbəti aşağı olmuşdur.

VƏD-in patogenezi bakteriyaların olması, iltihabi proseslər və orqanizmin infeksiyaya verdiyi cavab kimi amillərin mürəkkəb qarşılıqlı təsirindən ibarətdir. Müalicə olunmamış və ya adekvat nəzarət edilməyən sidik yolları infeksiyaları (SYİ), məsələn, pielonefritə gətirib çıxara bilər və bu da VƏD riskini daha da artırır.

Hamiləlik özü hormonların dəyişməsi ilə müşayiət olunur, bu da sidik yollarını infeksiyaya qarşı daha

həssas edir. Eyni zamanda bu hormonal dəyişikliklər uşaqlığın doğuşa hazır vəziyyətinə də təsir göstərə bilər [1].

Əvvəl SYİ keçirmiş qadınlar, hamiləlik dövründə bu infeksiyalarla yenidən qarşılaşmaq ehtimalı yüksək olan qrup hesab olunur və VƏD riski daha artıqdır.

Hamilə qadınların əhəmiyyətli bir hissəsində simptomsuz bakteruriya (SB), yəni aşkar simptomlar olmadan sidikdə bakteriyaların olması müşahidə olunur. Bu hal müalicə olunmazsa, VƏD ilə əlaqələndirilə bilər. Hamiləlik zamanı SYİ-nin ən çox yayılmış səbəbi Escherichia coli olub və bu bakteriya da VƏD ilə əlaqəli ola bilər. SYİ və SB üçün antenatal dövrdə müntəzəm skrininq aparılması çox vacibdir.

Hamiləlik dövründə sidik-cinsiyyət sistemində mühüm fizioloji dəyişikliklər baş verir, bu da SYİ və pielonefritin yaranmasına əhəmiyyətli dərəcədə təsir edir. Hamiləlik zamanı sidikdə qlükoza və amin turşularının səviyyəsinin yüksəlməsi də SYİ üçün əlavə səbəblərdir. Qlükozuriya adlanan bu hal, proksimal borucuq və Henlenin ilgəyində qlükozanın reabsorbsiyasının pozulması ilə əlaqəlidir. Bəzi tədqiqatçılar hipotez irəli sürmüşlər ki, qlükozanın olması E.colinin uroepitelə yapışmasına mane ola bilər [22].

Hamiləliklə əlaqədar baş verən fizioloji dəyişikliklər səbəbindən, hamilə qadınlar immun müdafiəsi zəif olan potensial infeksiya daşıyıcıları kimi qiymətləndirilirlər. Bundan əlavə, hamiləlik zamanı sidik ifrazı artır, bu da bakteriyaların artmasını təşviq edir [22].

Yekun. Mamalıq sahəsində əldə olunan nailiyyətlərə baxmayaraq, vaxtından əvvəl doğuşlar hələ də qlobal səhiyyə problemi olaraq qalır. Hamilə qadınlarda sidik yolları infeksiyalarının erkən aşkarlanması və müalicəsi, VƏD riskinin azaldılmasında mühüm rol oynayır. Gələcək tədqiqatlar, prospektiv müşahidələrə və təsadüfi seçmə ilə aparılan nəzarətli klinik sınaqlara yönəlməlidir ki, əsas mexanizmlər daha yaxşı başa düşülsün və hədəf müdaxilələr hazırlanmış olsun. Hamiləlik dövründə SYİ və VƏD arasındakı əlaqənin aşkar edilməsi, hamilə qadınlarda ciddi fəsadların qarşısının alınması məqsədilə erkən aşkarlama və müalicəyə yönəlmiş tədbirlərin əsasını təşkil edə bilər.

SUMMARY

Risk of preterm birth in urinary tract infections and asymptomatic bacteriuria during pregnancy

J.F. Gurbanova, N.A. Shahbazova, A.F. Amirova, A.E. Huseynova, S.E. Idrisova
Public legal entity Scientific Research Institute of Obstetrics and Gynecology, Baku, Azerbaijan

Keywords: *urinary tract infection, asymptomatic bacteriuria, infection, pregnancy, preterm birth*

The article presents the results of a review of scientific literature concerning the impact of urinary tract infections (UTIs) and asymptomatic bacteriuria on pregnancy outcomes. The importance of early detection and treatment of UTIs during pregnancy has been confirmed by numerous studies and incurporated into clinical guidelines in most countries. Despite the biological plausibility of UTIs as a risk factor for preterm birth (PTB), the existing literature presents conflicting findings, necessitating a comprehensive

РЕЗЮМЕ

Риск преждевременных родов при инфекциях мочевыводящих путей и бессимптомной бактериурии во время беременности

Дж.Ф. Курбанова, Н.А. Шахбазова, А.Ф. Амирова, А.Э. Гусейнова, С.Э. Идрисова
Научно- исследовательский Институт Акушерства и Гинекологии, Баку, Азербайджан

Ключевые слова: *инфекция мочевыводящих путей, бессимптомная бактериурия, инфицирование, беременность, преждевременные роды*

В статье представлены результаты изучения данных литературы, посвященных влиянию инфекции мочевыводящих путей и бессимптомной бактериурии на исходы беременности. Актуальность раннего выявления и лечения инфекций мочевыводящих путей (ИМП) в период гестации подтверждается многочисленными исследованиями и включена в клинические рекомендации большинства стран. Несмотря на биологическую правдоподобность ИМП как фактора риска

synthesis of the available evidence. The conducted analysis showed that, despite advances in obstetric care, preterm birth remains a global public health issue. Early identification and management of UTIs in pregnant women play a crucial role in reducing the risk of PTB. Future research should focus on prospective studies and randomized controlled trials to better understand the underlying mechanisms and develop targeted interventions. Identifying the link between UTIs during pregnancy and PTB could form the basis for early detection and treatment strategies aimed at preventing serious complications in pregnant women.

преждевременных родов (ПР), в имеющейся литературе представлены противоречивые результаты, требующие всестороннего синтеза имеющихся доказательств. Проведенный анализ данных литературы показал, что несмотря на достижения в области акушерской помощи, ПР остаются глобальной проблемой здравоохранения. Раннее выявление и лечение ИМП у беременных женщин имеют важное значение для снижения риска ПР. Будущие исследования должны быть сосредоточены на перспективных исследованиях и рандомизированных контролируемых испытаниях, чтобы лучше понять основные механизмы и разработать целевые вмешательства. Выявление связи между ИМП во время беременности и ПР может стать основой для проведения мероприятий по раннему выявлению и лечению, направленных на устранение серьезных осложнений у беременных женщин.

ƏDƏBİYYAT

1. Ansaldi Y, Martinez de Tejada Weber B. Urinary tract infections in pregnancy. Clin Microbiol Infect. 2023;29(10):1249-1253. doi: 10.1016/j.cmi.2022.08.015.
2. Johnson CY, Rocheleau CM, Howley MM, Chiu SK, Arnold KE, Ailes EC. Characteristics of Women with Urinary Tract Infection in Pregnancy. J Womens Health (Larchmt). 2021;30(11):1556-1564. doi: 10.1089/jwh.2020.8946.
3. Kalinderi K, Delkos D, Kalinderis M, Athanasiadis A, Kalogiannidis I. Urinary tract infection during pregnancy: current concepts on a common multifaceted problem. J Obstet Gynaecol. 2018;38(4):448-453. doi: 10.1080/01443615.2017.1370579.
4. Angelescu K, Nussbaumer-Streit B, Sieben W, Scheibler F, Gartlehner G. Benefits and harms of screening for and treatment of asymptomatic bacteriuria in pregnancy: a systematic review. BMC Pregnancy Childbirth. 2016;16(1):336. doi: 10.1186/s12884-016-1128-0.
5. Perin J, Mulick A, Yeung D, Villavicencio F, Lopez G, Strong KL, et al. Global, regional, and national causes of under-5 mortality in 2000-19: an updated systematic analysis with implications for the Sustainable Development Goals Lancet Child Adolesc Health. 2022;6:106-15.
6. Belete MA, Saravanan M. A Systematic Review on Drug Resistant Urinary Tract Infection Among Pregnant Women in Developing Countries in Africa and Asia; 2005-2016. Infect Drug Resist. 2020;13:1465-1477. doi: 10.2147/IDR.S250654.
7. Lee AC, Mullany LC, Koffi AK, Rafiqullah I, Khanam R, Folger LV, et al. Urinary tract infections in pregnancy in a rural population of Bangladesh: population-based prevalence, risk factors, etiology, and antibiotic resistance. BMC Pregnancy Childbirth. 2019;20(1):1. doi: 10.1186/s12884-019-2665-0.
Beləliklə, kompensator adaptiv mexanizmlərin tədricən tükənməsi fonunda hemodinamik mərkəzləşmə inkişaf edən fetal beyni hipoksik zədələnmədən tam şəkildə mühafizə edə bilmir, bu isə mərkəzi sinir sisteminin yetkinliyini pozaraq müxtəlif dərəcəli neyroinkişaf pozuntularının formalaşmasına zəmin yarada bilər.

Bətndaxili inkişafın ləngiməsi zamanı baş beyində neyroiltihab. BDİL zamanı baş beyinin zədələnməsinə səbəb olan vacib mexanizmlərdən biri – neyroiltihabdır. Neyroiltihab bir sıra prosesləri əhatə edərək aktivləşmiş mikroqliyanın çoxalması, proiltihabi sitokinlərin (İL-1β, TNF-α) miqdarının artması, əksiltihabi sitokinlərin azalması və astrogliozla səciyyələnir [17]. Proiltihabi sitokinlərin daimi aktivləşməsi və toplanması baş beyinin zədələnmədən sonra bərpasını, oliqodendroqliositlərin yetişməsini əngəlləyir, neyronların regerasiyasını məhtudlaşdırır, sinapsların əmələ gəlməsini ləngidir [18]. BDİL-nin heyvani modellərində astroqlioz və mikrogliyanın aktivləşməsi mielinizasiyanın ləngiməsi və ağ maddənin zədələnməsi ilə sıx əlaqələndirilir [19]. BDİL olan yenidoğulanların baş beynində yerli iltihabi prosesin olması barədə məlumat mövcud olsada, sistemli iltihabın dolayı olaraq baş beynin zədələnməsində rolu maraq doğurur. McElrath və həmmüəliflər öz tədqiqatlarında BDİL olan körpələrdə qanda proiltihabi sitokinlərin yüksək konsentrasiyasının sinir sisteminin anomal inkişafı və daha ağır nevroloji nəticələrlə əlaqəsini nümayiş etdirmişlər. Beləki, normal şəraitdə hematoensefalitik baryer (HEB) beyni zərərli sistemli toksinlərdən qoruyur. BDİL olan yenidoğulanlarda HEB-in keçiriciliyinin pozulması baş beynin sistemli iltihabi mediatorları ilə infiltrasiyasına və neyroiltibı reaksiyanın daha da dərinləşməsinə səbəb olur [20]. Analoji olaraq HEB-in zədələnməsi beyindən iltihabı hüceyrələrin qana keçməsinə və sistemli reaksiyaların güclənməsinə gətirib çıxarır. Tam aydın deyil neyroiltihab BDİL

olan uşaqlarda baş beyinin zədələnməsinin bir başa səbəbidir və ya bu proses ikincili olaraq hüceyrələrin zədələnməsi nəticəsində inkişaf edir. BDİL olan yenidoğulanlarda beyin zədəsini minimuma endirmək üçün həm pro-, həm də əksiltihabi sitokin reaksiyalarının tədqiqi vacibdir. Bu istiqamətdə əsas diqqət proiltihabi sitokinlərin mənfi təsirlərinə yönəlsədə, məs, əksiltihabi sitokinlərin aktivləşməsinə təsir etməklə beynin müdafiəsini təmin etmək olar [21].

Beynin normal inkişafı və fəaliyyəti üçün onun yüksək enerji tələbatını təmin edən adekvat damar şəbəkəsinə və hüceyrələr arası yüksək inteqrasiya olunmuş kommunikasiya sisteminə malik olması vacibdir. Neyrovaskulyar vahid (NVV) astrositlər və perisitlərlə sıx əlaqədə olan və bazal lamina membranı ilə əhatə olunmuş endotelial hüceyrələrdən ibarətdir. BDİL olan qoyun dölündə və yenidoğulan quzularda beyin damarlarının inkişafında dəyişikliklər müşahidə olunur: xroniki hipoksemiya nisbətən gec başladıqda kapillyar damarların ölçüsündə artım baş versədə, beyin qabığında damarların sayı dəyişmir. Bununla yanaşı, BDİL olan quzularda beynin ağ maddəsində damar sıxlığının azalması, həmçinin endotelial hüceyrələrin proliferasiyasının ləngiməsi müşahidə olunur. Nevropatoloji vəziyyətlərdə iltihab HEB rolunu yerinə yetirən və MSS-nin çoxhüceyrəli bir bölməsi olan NVV-in disfunksiyasının əsas mediatorudur. NVV beyni uzun müddətli patoloji təsirə malik olan toksik maddələrdən qoruyur. BDİL-nin heyvan modellərində aparılan son tədqiqatlar onların beyninə NVV-in pozulması ilə müştərək olan iltihab reaksiya və immun hüceyrə infiltrasiyasının təsirini nümayiş etdirmişlər. BDİL olan yenidoğulanlarda astrositlərin terminal artımları və qan damarları arasında qarşılıqlı əlaqənin itməsi endotelial hüceyrələrin sayında azalma ilə müşayiət olunur. Perivaskulyar boşluqda aktivləşlmiş mikroqliya ilə yanaşı, plazma zülalının sızması, NVV-in struktur çatışmazlığından xəbər verir. İltihab əleyhinə preparatlarla (ibuprofen, melatonin) müalicə iltihabi prosesləri azaltmaqla yanaşı, glial-damar əlaqəsinin və NVV- in bərpasına səbəb olmuşdur ki, buda həmin preparatların təsirindən sağlam beyin mikromühitinin yaranmasına dəlalət edir. NVV-in zədələnməsi erkən neyroiltihabi reaksiyaları şiddətləndirə biləciyindən həm NVV-in, həm də iltihab yollarının erkən hədəflənməsi, BDİL olan yenidoğulanlarda terapevtik yanaşma kimi qəbul oluna bilər [22, 23].

Bətndaxili inkişafın ləngiməsi zamanı baş beyində oksidləçdirici stress və apoptoz. Son onillikdə tədqiqatçıların səyləri BDİL zamanı beyində baş verən struktur və funksional pozuntuların molekulyar mexanizmlərinin tədqiqinə yönəlmişdir. Müəyyən edilmişdir ki, hipoksiya-işemiya şəraitində ilkin mərhələ hüceyrə zədələnməsi və enerji ehtiyatlarının tükənməsi ilə səciyyələnir. Oksidativ stressin güclənməsi, proiltihabi sitokinlərin yüksək səviyyədə sintezi ilə səciyyələnən birinci mərhələ apoptozla xarakterizə olunan ikinci mərhələ ilə müşayiət olunur. Bu proseslər, öz növbəsində, astrositlərin yetişməsinin ləngiməsinin, mikroqliyanın aktivləşməsinin, ağ maddənin zədələnməsinin və HEB-in tamlığının pozulmasının əsasını təşkil edir [24].

Oksidləşdirici fosforlaşma prosesi nəticəsində mitoxondrilərdə reaktiv oksigen və azot oksid radikalları formalaşır ki, bu proses müxtəlif antioksidantlar (superoksid dismutaza, qlutatyon peroksidaza, katalaza, E vitamini və s.) vasitəsi ilə tənzimlənir [25]. Hipoksiya, iltihab, işemiya şəraitində antioksidantların yetərsiz sintezi fonunda sərbəst radikalların, xüsusilə superoksid anionlarının, hidroperoksidlərin və hidroksil radikallarının həddindən artıq yaranması mitoxondrilərə güclü toksik təsir göstərir, onların disfunksiyasına səbəb olur ki, bu da öz növbəsində daha güclü oksidativ stressin yaranmasına və hüceyrə ölümünə gətirib çıxarır.

Medline, Embase mənbələrinin məlumatlarına (1996-2024-cü illər) əsaslanan sistematik icmal və metaanaliz göbək ciyəsi qanında oksidativ stress biomarkerləri və BDİL arasındakı əlaqənin təhlilini aparmışdır. Oksidativ statusu müəyyən edən 39 müxtəlif biomarkerdən BDİL ilə ən tutarlı assosiasiya total oksidant/antioksidant statusu, katalaza (CAT), qlutatyon (GSH), işemik albumin (IMA) və nüvəli eritrositlər (NRBC) ilə müşahidə olunmuşdur. Reaktiv oksigen və reaktiv azot növləri (ROS/RNS), onların yaranmasında iştirak edən amillər, antioksidant fermentlər, qeyri fermentativ antioksidantlar və oksidativ stressin məhsulları ilə BDİL arasında dəqiq bir əlaqə müəyyən edilməmişdir: bəzi tədqiqatlarda müsbət assosiasiyalar müşahidə edildiyi halda, digər tədqiqatlarda mənfi və ya heç bir əlaqə qeydə alınmamışdır [26].

Uşaq beyni qlial hüceyrələrin differensiasiya və proliferasiyası, mielinizasiya, eləcə də aktiv vaskulogenez, akson və dendritlərin intensiv inkişafı ilə xarakterizə olunan kritik dövrdə oksidativ stressə qarşı yüksək həssaslıq nümayiş etdirir. Bu dövrdə oksigenə olan yüksək tələbat, hüceyrədaxili sərbəst dəmirin miqdarının artması və neyron membranlarında çoxsaylı doymamış yağ turşularının mövcudluğu fo-

nunda enzimatik antioksidant sistemlərinin yetərsizliyi oksidativ zədələnmə riskini daha da artırır [27, 28]. Yenidoğulanın beyninin yağ turşuları və dəmir baxımından zəngin olması həmdə reaktiv oksigen növlərinin (RON) yaranmasında aparıcı rol oynayır. RON-nin yaranması mitoxondrilərdə əhəmiyyətli dəyişikliklərə səbəb olur — bu, işemik aclıq, funksional pozulmalar və gecikmiş neyron ölümü ilə nəticələnir [29]. Azot oksid sintazı (NOS) vasitəsilə beyinə qan axınının kompensator şəkildə artması MSS-nin reperfuzion zədələnməsinə səbəb olur. Nəticədə beyində dərin morfoloji və metabolik dəyişikliklər baş verir ki, bunlar da beynin həcmi və çəkisinin azalması, beyin qabığındakı neyronların apoptozunun artması, proliferasiya qabiliyyətinə malik hüceyrələrin, yetkin oliqodendrositlərin və neyrotrofinlərin miqdarının azalması, eləcə də reaktiv astrogliozla müşayiət olunan neyroiltihabi proseslərlə özünü göstərir [30, 31]. Prenatal hipoksiya və oksidativ stress beyincikdə, hipokampda və böyük beyin qabığında xolinergik sistemlərin fəaliyyətini pozur [32]. Tədqiqatlar göstərir ki, xolinergik strukturların hipoksik təsirlərə qarşı erkən reaktivliyi ilə neyronların gecikmiş degenerasiyası və ölümü arasında əhəmiyyətli korrelyasiya mövcuddur [33]. Bətndaxili inkişafın ləngiməsi zamanı baş beynin zədələnməsində oksidləşdirici stressin iltihabi proseslə olan qarşılıqlı əlaqəsi aparıcı rol oynayır [34]. İltihabi proses hüceyrə komponentlərinin zədələnməsinə və endotelial disfunksiyanın formalaşmasına səbəb olan sərbəst radikalların mənbəyidir. Proiltihabi sitokinlər NO sintazanın ekspressiyasını induksiya edərək peroksinitritin əmələ gəlməsinə və apoptoza səbəb olurlar. Perinatal hipoksiya/işemiyaya məruz qalan yenidoğulanların onurğa-beyin mayesində proiltihabi sitokin IL-6 konsentrasiyasının artması və antioksidant xüsusiyyətlərə malik olan qlutatyon peroksidaza fermentinin aktivliyinin azalması göstərilmişdir [35]. Proiltihabi sitokinlərin, neyronal proteinlərin (“long pentraxins”) və oksigenin reaktiv radikallarının aşırı sintezi mikroqliya hüceyrələrinin, eksaytotoksik amin turşularının miqdarını artıraraq, energetik tükənmə və apoptozu aktivləşdirərək MSS-nin zədələnməsinə və qeyri-qənaətbəxş nəticələrə səbəb olur [36]. BDİL ilə doğulan uşaqlarda oksidativ stresin, neyroiltihabın, aksonal zədələnmənin və hipomiyelinizasiyanın səbəblərindən biri melatonin çatışmazlığıdır. DNT-nin metilləşməsinə və histonların modifikasiyasına nəzarət edərək melatonin müxtəlif patologiyaların proqramlaşmasına səbəb olan gen ekspressiyasında baş verə biləcək dəyişikliklərin qarşısını alır [37]. Qeyri qənaətbəxş şəraitdə melatonin ciftdə və döldə inkişaf edən oksidativ və nitrativ stressi dayandırır, dölyanı mayedə və ananın qanında proiltihabi sitokinlərin istehsalını inhibə edir, əksiltihabi sitokinlərin sintezini stimullaşdırır, yenidoğulanın beynində isə iltihabın və neyronların ölümün qarşısını alır. Lakin BDİL ilə fəsadlaşan hamiləliklərdə fizioloji hamiləlikdən fərqli olaraq hipofizar melatonin sintezinin artması baş vermir, cift üzərində isə melatonin reseptorlarının ekspressiyası zəifləyir və qabarıq oksidativ stress baş verir [38-41]. Oksidativ stress hipoksik-işemik ensefalopatiya (HİE) üçün “həssaslıq pəncərəsi” yaradır: beyində mikroqliyanın aktivləşməsi, azot oksidinin (NO), qlutamatın və ROS-un səviyyəsinin artması ilə güclü iltihabi sitokinlərin ekspressiyası baş verir. Bu isə neyron apoptozuna, mikrovaskulyar qan axınının azalmasına və beyin zədələnməsinin ağırlaşmasına səbəb olur [42]. Sitokin istehsalı nə qədər yüksəkdirsə, HİE də bir o qədər ağır keçir. Enerji ehtiyatları əhəmiyyətli dərəcədə azaldıqda, apoptoz prosesi sitoxrom-C/kaspaza-3 kaskadının aktivləşməsi ilə başlayır [43]; apoptoz mitoxondrial disfunksiyadan əvvəl baş verə bilər və bu zaman nüvə faktoru kappa-B (NF-kB) siqnal yolu aktivləşir. Enerji tamamilə tükəndikdə isə nekrotik hüceyrə ölümü baş verir [44].

Beləliklə, BDİL zamani baş beynin zədələnməsinin patofizioloji mexanizmlərinin öyrənilməsinə yönəlmiş klinik və eksperimental tədqiqatlar bu patologiyanın metabolik, hemodinamik və neyroiltihabi proseslərin qarşılıqlı təsiri altında formalaşmasını və bu problemin qarşısının alınmasına yönəlmiş ilkin profilaktik və müalicəvi tədbirlərin vaxtında həyata keçirilməsinin vacibliyini göstərir. Döl beyninin zədələnməsinin erkən diaqnostikası üçün spesifik biomarkerlərin və erkən ontogenez dövründə neyroproteksiya metodlarının işlənib hazırlanması bu mühüm problemin həllinə yeni baxış bucağından yanaşmağa imkan verəcək.

SUMMARY

Pathophysiological mechanisms of central nervous system damage in children born with intrauterine growth restriction

Gahramanli Shabnam Gahraman
Scientific Research Institute of Obstetrics and Gynecology, Baku, Azerbaijan

Keywords: *intrauterine growth restriction, central nervous system, pathophysiological mechanisms*

In this articile presented the information concerning clinical and experimental studies aimed at studying the pathophysiological mechanisms of brain damage during intrauterine growth restriction (IUGR) show that this pathology is formed under the interaction of metabolic, hemodynamic and neuroinflammatory processes and the importance of timely implementation of primary preventive and therapeutic measures aimed at preventing this problem. The development of specific biomarkers for early diagnosis of fetal brain damage and methods of neuroprotection in the early ontogenesis period will allow us to approach the solution of this important problem from a new perspective.

РЕЗЮМЕ

Патофизиологические механизмы поражения центральной нервной системы у детей, рожденных с задержкой внутриутробного развития

Гахраманлы Шабнам Гахраман кызы
Научно-исследовательский Институт Акушерства и Гинекологии, Баку, Азербайджан

Ключевые слова: *задержка внутриутробного развития плода, центральная нервная система, патофизиологические механизмы*

В представленной статье представлены данные клинических и экспериментальных исследований, направленных на изучение патофизиологических механизмов поражения головного мозга при задержке внутриутробного развития плода (ЗВУР). Они показывают, что данная патология формируется в условиях взаимодействия метаболических, гемодинамических и нейровоспалительных процессов, а также важность своевременного проведения первичных профилактических и лечебных мероприятий, направленных на предотвращение данной проблемы. Разработка специфических биомаркеров для ранней диагностики фетального поражения головного мозга и методов нейропротекции в раннем периоде онтогенеза позволит по-новому подойти к решению этой важной проблемы.

ƏDƏBİYYAT

1. Юсенко С.Р., Нагорнева С.В., Коган И.Ю. Изменение мозговой гемодинамики плода при задержке его роста. Российский вестникакушера-гинеколога. 2024;24(3):36–41. https://doi.org/10.17116/rosakush20242403136
2. Wixey JA, Chand KK, Pham L, Colditz PB, Bjorkman SB. Therapeutic potential to reduce brain injury in growth restricted newborns J Physiol, 2018, 596(23):5675-5686. doi: 10.1113/JP275428.
3. Briana DD., Malamitsi-Puchner A. Developmental origins of adult health and disease: The metabolic role of BDNF from early life to adulthood. Metabolism. 2018; 81: 45-51. https://dx.doi.org/10.1016/j.metabol.2017.11.019.
4. Marosi K., Mattson MP. BDNF mediates adaptive brain and body responses to energetic challenges. Trends Endocrinol. Metab. 2014; 25(2): 89-98. https://dx.doi.org/10.1016/j.tem.2013.10.006.
5. Massaro AN., Wu Y.W., Bammler TK., Comstock B., Mathur A., McKinstry RC. et al. Plasma biomarkers of brain injury in neonatal hypoxic-ischemic encephalopathy. J. Pediatr. 2018; 194: 67-75. https://dx.doi.org/10.1016/j.jpeds.2017.10.060.
6. Pathare-Ingawale P., Chavan-Gautam P. The balance between cell survival and death in the placenta: Do neurotrophins have a role? Syst. Biol. Reprod. Med. 2022; 68(1): 3-12. https://dx.doi.org/10.1080/19396368.2021.1980132.

7. Miller SL, Huppi PS, Mallard C. The consequences of fetal growth restriction on brain structure and neurodevelopmental outcome. J Physiol, 2016 Feb 15;594(4):807-23. doi: 10.1113/JP271402.
8. Lodygensky GA, Seghier ML, Warfield SK, Tolsa CB, et al. Intrauterine growth restriction affects the preterm infant's hippocampus. Pediatr Res, 2008, 63, 438–443.
9. Mallard C, Loeliger M, Copolov D & Rees S. Reduced number of neurons in the hippocampus and the cerebellum in the postnatal guinea-pig following intrauterine growth-restriction. Neuroscience, 2000, 100, 327–333.
10. Fung CM. Effects of intrauterine growth restriction on embryonic hippocampal dentate gyrus neurogenesis and postnatal critical period of synaptic plasticity that govern learning and memory function. Front. Neurosci, 2023, 17:1092357. doi: 10.3389/fnins.2023.1092357.
11. Meijerink L, van Ooijen İM, Alderliesten T, Terstappen F et al. Fetal brain development in fetal growth restriction using MRI: a systematic review. BMC Pregnancy and Childbirth, 2025, 25:208, https://doi.org/10.1186/s12884-024-07124-4.
12. Tsikouras P, Antsaklis P, Nikolettos K, Kotanidou S.et al. Diagnosis, Prevention, and Management of Fetal Growth Restriction (FGR). J. Pers. Med. 2024, 14, 698. https://doi.org/ 10.3390/jpm14070698.
13. Benítez-Marín, M.J.; Marín-Clavijo, J.; Blanco-Elena, J.A.; Jiménez-López, J.; González-Mesa, E. Brain Sparing Effect on Neurodevelopment in Children with Intrauterine Growth Restriction: A Systematic Review. Children 2021, 8, 745. https://doi.org/10.3390/ children8090745.
14. Kiatsuda D, MD[1], Saksiriwuttho P, MD[1], Komwilaisak R, MD[1], Ratanasiri T, MD[1]. Reference Values of the Anterior Cerebral Artery Doppler Indices in Normal Fetuses. J Med Assoc Thai 2019;102(5):595-600.
15. Richter AE, Salavati S, Kooi EMW, Heijer AEd, et al. Fetal Brain-Sparing, Postnatal Cerebral Oxygenation, and Neurodevelopment at 4 Years of Age Following Fetal Growth Restriction. Front. Pediatr, 2020, 8:225. doi: 10.3389/fped.2020.00225.
16. Khatib N, Thaler I, Beloosesky R, Dabaja H, et al. The effect of maternal hyperoxygenation on fetal circulatory system in normal growth and IUGR fetuses. What we can learn from this impact. The Journal of Maternal-Fetal & Neonatal Medicine, 2017, 31(7), 914–918. https://doi.org/10.1080/ 14767058.2017.1301925
17. Dixey JA, Chand KK, Colditz PB, Bjorkman ST. Review: Neuroinflammation in intrauterine growth restriction. Placenta, 2017, Vol 54, p. 117-124
18. Камилова Т.А., Голота А.С., Вологжанин Д.А., Шнейдер О.В., Щербак С.Г. Биомаркеры детского церебрального паралича. Физическая и реабилитационная медицина, медицинская реабилитация. 2021;3(3):301–317. DOI:https://doi.org/10.36425/rehab79386
19. Wixey JA, Lee KM, Miller SM, Goasdoue K et al. Neuropathology in intrauterine growth restricted newborn piglets is associated with glial activation and proinflammatory status in the brain. Journal of Neuroinflammation, 2019, 16:5 https://doi.org/10.1186/s12974-018-1392-1.
20. Castillo-Melendez M, Yawno T, Allison BJ, Jenkin G et al. Cerebrovascular adaptations to chronic hypoxia in the growth restricted lamb. International Journal of Developmental Neuroscience, 2015, Volume 45, Issue 1, p: 55-65.
21. Misan, N.; Michalak, S.; Kapska, K.; Osztynowicz, K.; Ropacka-Lesiak, M. Blood-Brain Barrier Disintegration in Growth-Restricted Fetuses with Brain Sparing Effect. Int. J. Mol. Sci. 2022, 23, 12349. https://doi.org/10.3390/ ijms232012349.
22. Chand KK, Miller SM, Cowin GJ, Lipsa Mohanty L et al. Neurovascular Unit Alterations in the Growth-Restricted Newborn Are Improved Following Ibuprofen Treatment. Mol Neurobiol 59, 1018–1040 (2022). https://doi.org/10.1007/s12035-021-02654-w.
23. Castillo-Melendez M, Yawno T, Sutherland A, et al. Effects of antenatal melatonin treatment on the cerebral vasculature in an ovine model of fetal growth restriction. Dev Neurosci. 2017;39(1-4):323-337.
24. Feenstra, M.E.; Bourgonje, M.F.; Bourgonje, A.R.; Schoots, M.H. et al. Systemic Oxidative Stress in Severe Early-Onset Fetal Growth Restriction Associates with Concomitant Pre-Eclampsia, Not with Severity of Fetal Growth Restriction. Antioxidants 2024, 13, 46. https://doi.org/10.3390/ antiox13010046.

25. D'Angelo G., Chimenz R., Reiter R.J., Gitto E. Use of Melatonin in Oxidative Stress Related Neonatal Diseases // Antioxidant (Basel). 2020. V. 9. № 6. P. 477.
26. Blok, E. L., Burger, R. J., Bergeijk, J. E. V., Bourgonje, A. R., Goor, H. V., Ganzevoort, W., & Gordijn, S. J. (2024). Oxidative stress biomarkers for fetal growth restriction in umbilical cord blood: A scoping review. Placenta, 154, 88-109. https://doi.org/10.1016/j.placenta.2024.06.018
27. Solevag A.L., Schmolzer G.M., Cheung P.Y. Novel interventions to reduce oxidative-stress related brain injury in neonatal asphyxia // Free Radic. Biol. Med., 2019. V. 142. P. 113.,
28. Chiarello D.I, Abada C, Rojas D, Toledo F et al. Oxidative stress: Normal pregnancy versus preeclampsia. Biochimica et Biophysica Acta (BBA) - Molecular Basis of Disease 1866 (2020) 165354.
29. Zhao M, Zhu P, Fujino M, Zhuang J et al. Oxidative Stress in Hypoxic-Ischemic Encephalopathy: Molecular Mechanisms and Therapeutic Strategies. Int. J. Mol. Sci., 2016, 17, 2078.
30. Alves de Alencar Rocha A.K., Allison B.J., Yawno T. et al. Early-versus Late-Onset Fetal Growth Restriction Differentially Affects the Development of the Fetal Sheep // Dev. Neurosci. 2017. V. 39. № 1–4. P. 141.
31. Korkmaz A., Rosales-Corral S., Reiter R.J. Gene regulation by melatonin linked to epigenetic phenomena // Gene. 2012. V. 503. № 1. P. 1
32. Морозова А.Ю., Арутюнян А.В., Морозова П.Ю. и др. Влияние пренатальной гипоксии на активность растворимых форм холинэстераз в структурах головного мозга и сыворотке крови крыс в раннем онтогенезе. Журн. эволюц. биохим. физиол. 2020. Т. 56. № 6. С. 485.
33. Захарова Е.И., Свинов М.М., Германова Э.Н. и др. Механизмы вовлечения холинэргических систем в процессах морфофункциональной реорганизации неокортекса и гиппокампа в условиях гипоксии мозга / Проблемы гипоксии: молекулярные, физиологические и медицинские аспекты // Под ред. Лукьяновой Л.Д., Ушакова И.Б. М., 2004. 268 с.
34. Kaur C., Rathnasamy G., Ling E.A. Roles of activatedmicroglia in hypoxia induced neuroinflammation in the developing brain and the retina. J. Neuroimmun. Pharmacol., 2013. V. 8. № 1. P. 66.
35. Vasiljevic B, Maglajlic-Djukic S, Gojnic M. et al. New insights into the pathogenesis of perinatal hypoxicischemic brain injury. Pediatr. Int., 2011. V. 53. № 4. P. 454.
36. Huang V, RoemJ, Ng DK, Schwartz JM Exploratory factor analysis yields grouping of brain injury biomarkers significantly associated with outcomes in neonatal and pediatric ECMO. Scientifc Reports, 2024, 14:10790.
37. Galano A., Tan D.X., Reiter R.J. et al. Melatonin: A Versatile Protector against Oxidative DNA Damage. Molecules., 2018. V. 23. № 3. P. 530.
38. Ireland K.E., Maloyan A., Myatt L. Melatonin Improves Mitochondrial Respiration in Syncytiotrophoblasts From Placentas of Obese Women // Reprod. Sci. 2018. V. 25. № 1. P. 120.
39. Chitimus D.M., Popescu M.R, Voiculescu S.E. et al. Melatonin's Impact on Antioxidative and Anti-Inflammatory Reprogramming in Homeostasis and Disease. Biomolecules, 2020. V. 10. № 9. P. 1211.
40. Tarocco A., Caroccia N., Morciano G. et al. Melatonin as a master regulator of cell death and inflammation: molecular mechanisms and clinical implications for newborn care. Cell. Death. Dis., 2019. V. 10. № 4. P. 317.
41. Евсюкова И. И. Церебральные нарушения и последствия при задержке внутриутробного развития доношенного ребенка: роль окислительного стресса и мелатонина. Физиология человека, 2022, том 48, № 3, с. 120–126.
42. Qin X, Cheng J, Zhong Y, Mahgoub O.K et al. Mechanism and Treatment Related to Oxidative Stress in Neonatal Hypoxic-Ischemic Encephalopathy. Front. Mol. Neurosci., 2019, 12, 88.
43. Rompis J, Murdono D, Daud D, Wilar, R.; Hatta, M.; Umboh, A. Role of Caspase-3 Level in Perinatal Asphyxia. Iran. J. Neonatol. 2021, 12, 1–7.
44. Notarbartolo V, Badiane B.A, Angileri V.M, Piro E, Giuffrè M. Antioxidant Therapy in Neonatal Hypoxic Ischemic Encephalopathy: Adjuvant or Future Alternative to Therapeutic Hypothermia? Metabolites 2024, 14, 630. https://doi.org/ 10.3390/metabo14110630.

FON VİLLEBRAND XƏSTƏLİYİNİN MAMALIQ ASPEKTİ

Z.F. Mahmudbəyova
Ə. Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Mamalıq və ginekologiya kafedrası, Bakı, Azərbaycan

Açar sözlər: *fon Villebrand xəstəliyi, hamiləlik, doğuş, hemostaz, doğuşdan sonrakı qanaxma, Fon Villebrand faktor, VIII faktor*

Fon Villebrand xəstəliyi (FVX) — irsi xəstəlik olub, Fon Villebrand faktoru (FVF) çatışmazlığının kəmiyyət və ya keyfiyyət çatışmazlığı ilə xarakterizə olunur. Xəstəliyin yayılması müxtəlif tədqiqatlarda fərqli göstərilmiş və müxtəlif üsullarla qiymətləndirilmişdir, çünki bütün FVX xəstələrində qanaxma simptomları müşahidə olunmur. Bütün FVX formalarının yayılma dərəcəsi 0,6–1,3% qiymətləndirilir, lakin spesifik müalicə tələb edən simptomatik forma həm kişilərdə, həm də qadınlarda eyni dərəcədə təsir göstərir, qadınlarda diaqnoz qoyulma orta yaşı 19-dur [1, 2].

Fon Villebrand xəstəliyi üç tipə bölünür. Ən çox rast gəlinən tip 1 olub, halların 70–78%-ində kəmiyyət baxımından qismən FVF çatışmazlığı ilə xarakterizə olunur. Tip 2 FVF-nin keyfiyyət çatışmazlığı ilə xarakterizə olunur və alt tiplərə bölünür: A alt tipi, B alt tipi, M alt tipi və N alt tipi, burada FVF VIII faktora çox aşağı yaxınlığa malikdir. Tip 3 isə FVF-nin tam kəmiyyət çatışmazlığı ilə xarakterizə olunur [1, 3]. Xəstəlik 2N və 3 tiplərində autosomal-recessiv, 1, 2A, 2B və 2M tiplərində isə autosomal-dominant irsiyyət növünə malikdir [3].

Fon Villebrand faktoru — çoxhissəli qlikoprotein olub, endotelial hüceyrələr və meqakariositlər tərəfindən sintez edilir, ilkin və ikincili hemostazda əsas rol oynayır və müxtəlif trombosit yapışma və aqreqasiya reseptorları ilə qarşılıqlı təsir göstərir. İkincili hemostazda o, VIII faktorun daşıyıcısı kimi çıxış edərək onun plazmada aktivləşmiş C proteini tərəfindən məhv edilməsinin qarşısını alır [1]. Trombosit yapışmasının pozulması və ya FVF-nin daha aşağı konsentrasiyaları, FVF ilə bağlı problemlər olduqda qanaxmaya səbəb ola bilər.

Diaqnoz adətən xəstəliyin erkən mərhələlərində qoyulur və buna diş ətinin qanaması, burun qanamaları, anormal menstrual qanamalar və daha ağır hallarda mədə-bağırsaq qanamaları kimi əlamətlər əsas olur. Diaqnoz FVF-nin antigen səviyyəsi və ya FVF fəaliyyəti ilə, həmçinin VII faktorun aktivliyi əsasında kəmiyyətcə müəyyənləşdirilməklə təsdiqlənir. FVF səviyyəsi 30%-dən aşağı və ya qanaxma simptomları ilə birlikdə 50%-dən aşağı olduqda diaqnoz qoymaq mümkündür, bu da adekvat diaqnostika üçün hematoloji mərkəzlərə yönləndirmə zərurətini göstərir [4].

Hamiləlik zamanı fizioloji dəyişikliklər çərçivəsində estrogenlər qaraciyərdə zülal sintezini artırır, bu da VII, VIII, X, XII faktorları, FVF və fibrinojenin səviyyəsinin yüksəlməsinə; tromboplastin vaxtının qısalmasına və C zülalının səviyyəsinin azalmasına səbəb olur, beləliklə doğum sonrası qanamanın az ehtimalını təmin etmək üçün profilaktik dəyişikliklər yaranır [1]. Nəticədə FVF və VIII faktor əsasən tip 1 və 2 xəstəliklərdə normal səviyyələrə yüksələ bilər. Doğum sonrası dövrdə bu səviyyələr azalmaq meyli göstərir, bu isə doğum sonrası qanama riskini artırır və qan məhsullarının köçürülməsi ehtiyacını yaradır ki, bu da ikinci dərəcəli fəsadlara, məsələn, tənəffüs çatışmazlığı, ağciyər ödemi, kəskin böyrək zədələnməsi [5] və hətta ananın ölümünə səbəb ola bilər.

Fon Villebrand xəstəli qadınlar hamiləliklə əlaqəli hormonal dəyişikliklərin və FVX çatışmazlığının qarşılıqlı təsiri səbəbindən xüsusi çətinliklərlə üzləşirlər. Bu, adətən yüngül və ya ağır qanaxma əlamətləri ilə özünü göstərir [1]. 2-ci tip Villebrand faktoru funksional və struktur fərqlərə əsasən əlavə olaraq 2A, 2B, 2M və ya 2N kimi təsnif edilir; bu tip təxminən insanların üçdə birinə təsir edir [5]. 1-ci tip FVX ilə müqayisədə, 2-ci tip FVX-də daha güclü və daha tez-tez rast gəlinən qanaxmalar müşahidə olunur. Ən ağır forma isə FVX-nin demək olar ki, tam çatışmazlığı nəticəsində yaranan 3-cü tipdir [1]. Fon Villebrand xəstəli pasiyentlərdə müşahidə oluna bilən bəzi simptomlara asan dəridə göyərmə, ağız və ya diş ətindən qanaxma, güclü menstrual qanaxma, stomatoloji müalicə, cərrahi müdaxilə və ya doğuşdan sonra qanaxma daxildir [1]. Daha ağır çatışmazlıq hallarında oynaqlarda qanaxma da mümkündür [6]. Autosom tipli irsiyyətə əsasən, qadınlarda xəstəliyin inkişaf ehtimalı daha yüksəkdir ki, bu da əsasən

hamiləlik, menstruasiya və doğuş kimi qadınlara xas hemostaz problemləri ilə izah olunur [7].

Fon Villebrand xəstəliyinin mamalıq aspektlərinə hamiləlik və doğuşdan sonrakı dövrdə artmış qanaxma riski daxildir ki, bu da diqqətli, multidissiplinar nəzarət tələb edir. Fon Villebrand xəstəli qadınlarda doğuşdan sonrakı qanaxma, qan köçürülməsi zərurəti və doğuş travması nəticəsində qanaxma riski yüksəkdir. Həm ana, həm də uşaq üçün təhlükəsiz nəticəni təmin etmək məqsədilə diqqətli müşahidə, doğuşun ehtiyatla planlaşdırılması və ixtisaslaşmış müalicə vacibdir.

Ginekoloqların, feldşerlərin, hematoloqların və anesteziologların iştirakı ilə keçirilən iclasda BV-li qadınlarda doğuş zamanı qanaxma riskini azaltmaq məqsədilə FVF və VIII laxtalanma faktoru konsentratının profilaktik tətbiqinə əsaslanan doğuşun aparılması protokolu hazırlanmışdır (cədvəl) [5, 6, 8].

Cədvəl.
Villebrand xəstəliyi olan pasiyentlərdə doğuşun aparılması protokolu [1]

Hamiləlik mərhələsi	Hərəkət	
Antenatal qulluq ziyarəti: üçüncü trimestr	Genetik məsləhət. VIII faktor və fon Villebrand faktoru (FVF) üçün qan testi. Trombositlərin miqdarı da daxil olmaqla, ümumi qan analizi. Dölün vəziyyətinin müşahidəsi: hamiləliyin 28-ci həftəsindən sonra hər iki həftədən bir və 37-ci həftədən sonra hər həftə. Müşayiət olunan mamalıq risk faktorlarından asılı olaraq tezlik arta bilər.	
38-39 həftə	Doğuşun stimullaşdırılması üçün xəstəxanaya yerləşdirmə. İxtisasarası müayinə, ginekologiya, perinatologiya, hematologiya, anesteziologiya və qanköçürmə şöbəsi. Ehtiyat qan məhsulları. FVF səviyyəsi göstəriləndən yüksəkdirsə, farmakoloji profilaktikaya ehtiyac yoxdur. Epiziotomiya və instrumental doğuşdan çəkinmək. Aktiv doğuş. Oksitosin, vaginal doğuş zamanı ön çiyin oynağı doğulanda 10 BV* və ya Kesar kəsiyində 30 BV* əzələdaxili. Qanaxma halında, gündə üç dəfə 1000 mq traneksam turşu tətbiq etməyi düşünmək.	
Hamiləlik mərhələsi	Birinci sıra terapiya	İkinçi sıra terapiya
Doğuşun aktiv mərhələsi	Tip 1 FVxəstəliyi: FVF səviyyəsi 50 BV/dl-dən aşağı olarsa, faktor VIII/FVF kompleksi 50 BV/kq dozada tətbiq olunur. Doğuş baş verməyibsə, dozanı 12 saatdan sonra təkrarlamaq.	Desmopressin venadaxili 0,3 mkq/kq (maksimum doza: 25-30 mkq) hər 12-24 saatda və ya intranazal olaraq 300 mkq hər 12-24 saatda
	Tip II FV xəstəliyi: FVF 100 BV/dl-dən aşağı olduqda, faktor VIII/FVF kompleksini 50 BV/kq dozada tətbiq etmək; doğuş baş verməyibsə, dozanı 12 saatdan sonra təkrarlanmaq.	Desmopressin venadaxili 0,3 mkq/kq (maksimum doza: 25-30 mkq) hər 12-24 saatda və ya intranazal olaraq 300 mkq hər 12-24 saatda
	Tip III FV xəstəliyi: FVF 100 BV/dl-dən aşağı olduqda, faktor VIII/FVF kompleksini 50 BV/kq dozada tətbiq etmək; doğuş baş verməyibsə, dozanı 12 saatdan sonra təkrarlamaq.	

Fizioloji doğuş və ya Kesar kəsiyi	Tip I FV xəstəliyi: FVF 50 BV/dl-dən aşağı olduqda, faktor VIII/FVF kompleksini 50 BV/kq dozada və ya Desmopressin venadaxili 0,3 mkq/kq (maksimum doza: 25-30 mkq) hər 12-24 saatda və ya intranazal olaraq 300 mkq hər 12-24 saatda tətbiq etmək.	
	Tip II FV xəstəliyi: FVF 100 BV/dl-dən aşağı olduqda, faktor VIII/FVF kompleksini 50 BV/kq dozada və ya Desmopressin venadaxili 0,3 mkq/kq (maksimum doza: 25-30 mkq) və ya intranazal olaraq 300 mkq hər 12-24 saatda yeridilmək.	
	Tip III FV xəstəliyi: FVF 100 BV/dl aşağı olduqda, faktor VIII/FVF kompleksini 50 BV/kq dozada tətbiq etməsi	
Hamiləlik mərhələsi	Hərəkət	Farmakoloji müalicə
Doğuşdan sonrakı 1-ci gün	İntensiv müalicə şöbəsində qanaxma və uşaqlıq tonusunun monitorinqi	FVF səviyyəsi 50 BV/dl-dən aşağı olarsa, hər 12 saatda 50 BV/kq dozada faktor VIII/FVF kompleksi tətbiq edilir
Doğuşdan sonrakı 2-ci gün	İntensiv müalicə şöbəsində qanaxma və uşaqlıq tonusunun monitorinqi	FVF səviyyəsi 50 BV/dl-dən aşağı olarsa, hər 12 saatda 30 BV/kq dozada faktor VIII/FVF kompleksi tətbiq edilir.
Doğuşdan sonrakı 3-cü gün	İntensiv müalicə şöbəsində qanaxma və uşaqlıq tonusunun monitorinqi	FVF səviyyəsi 50 BV/dl-dən aşağı olarsa, hər 12 saatda 20 BV/kq dozada faktor VIII/FVF kompleksi tətbiq edilir
Doğuşdan sonrakı 4-cü gün	İntensiv müalicə şöbəsində qanaxma və uşaqlıq tonusunun monitorinqi	FVF səviyyəsi 50 BV/dl-dən aşağı olarsa, hər 12 saatda 20 BV/kq dozada faktor VIII/FVF kompleksi tətbiq edilir
Doğuşdan sonrakı 5-7-ci gün	Qanaxma və uşaqlıq tonusunun monitorinqi	Qanaxma halında, FVF-un səviyyəsi 50 BV/dl-dən aşağı olduqda, hər 12 saatda 50 BV/kq dozada factor VIII/FVF kompleksi tətbiq edilir.
14-cü gündə davamı	Təkrar qəbul, FVF və laxtalanma faktoru VIII səviyyəsinin təyin edilməsi	

Qeyd: *BV* – Beynəlxalq vahid*

Bu protokola əsasən, doğuşlar 38–39-cu həftələr arasında, vaxtında planlaşdırılır ki, doğuşdan sonrakı qanaxma riski səbəbindən gözlənilməz doğuş hallarının qarşısı alınsın. Doğuşun aparılması və doğuşdan sonrakı dövr, doğuş zamanı və doğuşdan sonra kombinə olunmuş preparatın tətbiqinə, eləcə də doğuşdan sonrakı qanaxma riski azaldıqca dozanın tədricən azaldılmasına əsaslanır.

Hamiləlik dövründə FVF və VIII faktorunun dinamikası barədə məlumat verilmişdir. 30-cu həftədə FVF aktivliyi 3% (40–200%), VIII faktoru 4% (50–150%) təşkil etmişdir; 38-ci həftədə isə müvafiq olaraq 3% (40–200%) və 4% (50–150%) olmuşdur; doğuşdan sonra FVF aktivliyi 41% (40–200%) təşkil etmiş, VIII faktor üzrə məlumat göstərilməmişdir [1,9].

Ədəbiyyatda FVX-li qadınlarda doğuş zamanı qanaxma riskinin və ağırlıq dərəcəsinin düzgün qiymətləndirilməsi ilə bağlı ziddiyyətli nəticələr təqdim olunur. Tarixi məlumatlara görə, bu xəstəliyi olan qadınlarda doğuşdan sonrakı qanaxma faizi 15%-dən 60%-ə qədər dəyişmişdir [10]. Bu cür qeyri-müəyyənlik həmçinin o zaman müşahidə olunur ki, 1-ci tip FVX-li pasiyentlərin siyahısına VIII faktoru və FVF-nin geniş diapazonda olan baza səviyyələrinə malik qadınlar da daxil edilir.

Fon Villebrand faktoru ilə bağlı çoxmərkəzli Avropa tədqiqatında göstərilmişdir ki, qanaxma simptomlarının kəmiyyət baxımından təhlili 1-ci tip FVX-nin daha dəqiq diaqnostikası və onun optimal müalicəsi üçün tövsiyələrin hazırlanması baxımından potensial faydalıdır [3].

ABŞ-da aparılmış geniş "hadisə-nəzarət" tədqiqatında (2000–2003-cü illəri əhatə edən və hamiləliklə əlaqəli bütün xəstəxana çıxarış kodlarına əsaslanan 4067 FVX-li qadının doğuşu daxil olmaqla) bu qadınlarda doğuşdan sonrakı qanaxma ehtimalının daha yüksək olduğu (OR 1,5; 95% CI 1,1–2,0) və qan köçürülməsi riskinin FVX olmayan qadınlarla müqayisədə beş dəfə çox olduğu (OR 4,7; 95% CI 3,2–7,0) müəyyən edilmişdir [11].

Faktor VIII və FVF-un tədricən artması 1-ci tip FVX-li qadınların əksəriyyətində, yəni xəstəliyin qismən kəmiyyət çatışmazlığı olan hallarda müşahidə olunur və bu göstəricilər üçüncü trimestrdə >50 BV/dL səviyyəsinə çata bilər. Lakin bu tipin də əsasını təşkil edən fenotip və genotiplərin geniş heterogenliyi səbəbindən bu ümumi fikir ehtiyatla şərh edilməlidir və FVX diaqnozu qoyulmuş hər bir hamilə qadının diqqətlə qiymətləndirilməsi tövsiyə olunur. Ümumiyyətlə, başlanğıcda FVF və VIII faktoru səviyyələri >30 BV/dL olan qadınlar (bu da 1-ci tip FVX-yə uyğundur) hamiləliyin sonuna doğru normal səviyyələrə çatma ehtimalı yüksək olan pasiyentlər hesab olunur [9]. Uşaqlıq atoniyası qanaxma riskinin artmasına səbəb ola bilər, buna görə də hemostatik terapiyaya əlavə olaraq uyğun müalicə tədbirləri də görülməlidir.

Başlanğıc səviyyələri <20 U/dL olan qadınlarda adətən artım daha az olur, çünki onların çoxu FVF-nun artmış klirensi və ya azalmış sintezi və sekresiyası ilə əlaqəli DNT variantlarının daşıyıcısıdır və ya müxtəlif FVF variantlarının mürəkkəb heteroziqotlarıdır, bu da qənaətbəxş hemostaz səviyyəsinə çatmağa mane olur [9]. Eyni şəkildə, FVIII və FVF-nin ölçülə bilən səviyyələri ilə əlaqəli olan null və missens tipli DNT variantlarının mürəkkəb heteroziqot daşıyıcısı olan qadınlarda da hamiləlik dövründə əhəmiyyətli yaxşılaşma müşahidə edilmir [9]. Genetik fon (desmopressinə cavab tipini böyük ölçüdə müəyyən edən və əksər hallarda hamiləlik dövründə dəyişən) bu pasiyentlərin çoxu üçün əlçatan olmadığından, hamiləlik dövründə, ən azı üçüncü trimestrdə diqqətli müşahidə aparılması və xüsusi müalicəyə ehtiyacı olan qadınların müəyyən edilməsi şiddətlə tövsiyə olunur [9].

1-ci tip FVX-li hamilə qadınlarda doğuş zamanı VIII:C faktoru və/və ya FVF səviyyəsi 30 BV/dl-dən aşağı olduqda, göbək ciyəsinin kəsilməsindən sonra və bundan sonrakı 3–4 gün ərzində, xüsusilə də orta epiziotomiya tələb olunduqda, desmopressin tətbiq olunmalıdır. Damar daxili (venadaxili) yeridilmə dərialtı inyeksiya ilə eyni səviyyədə konsentrasiya artımı yaradır, lakin pik səviyyəyə çatma vaxtı, adətən, daha qısadır. Bununla belə, xüsusilə təkrar dozalar zamanı VIII faktoru və FVF səviyyələrinin nəzarətdə saxlanılması tövsiyə olunur.

Fon Villebrand faktorunun yüksək penetrantlıq və ekspressivlik göstərən bəzi DNT variantları (məsələn, c.3614G>A, p.Arg1205His və c.3388T>C, p.Cys1130Phe) FVF-nun artmış klirensi ilə əlaqəlidir, bu da FVF propeptidi/FVF:Ag nisbətinin yüksəlməsi ilə təsdiqlənir və hamiləliyin sonunda normal səviyyələrə çatmağa mane olur. Bununla belə, retrospektiv və prospektiv tədqiqatlar göstərmişdir ki, bu DNT variantlarına malik qadınlarda desmopressinlə müalicə bu vəziyyətdə təhlükəsiz hesab olunur. Hiponatremiya riskinin qarşısını almaq üçün diurezə nəzarət və maye qəbulunun məhdudlaşdırılması vacibdir.

Eyni yanaşma, daha az infuziya ilə, FVF səviyyəsi >30 və <50 BV/dL olan qadınlarda da tətbiq oluna bilər. Təcrübə göstərir ki, müalicəyə doğuşdan birbaşa əvvəl başlanması ana və yenidoğulmuş üçün aşkar yan təsirlər yaratmadan mümkündür. Lakin bəzi ölkələrdə, xüsusilə pasiyentin diqqətli müşahidəsini təmin etməyin çətin olduğu hallarda, FVF/VIII faktoru konsentratlarından istifadə edən alternativ üsullar da tətbiq olunur. Bu halda, FVF 40–60 BV/kq dozada doğuşun son mərhələsində yeridilir, gündə bir dəfə olmaqla ən azı 3 gün davam etdirilir, daha sonra isə bir həftə ərzində traneksam turşusunun peroral qəbulu təyin olunur [9].

Antenatal dövrdə, xüsusilə üçüncü trimestrdə, doğuşun effektiv planlaşdırılması üçün VIII və FV faktorlarını nəzarətdə saxlamaq çox vacibdir. Bu amil hamiləlik zamanı artmış prokoaqulyant faktorlarla əlaqəli patofizioloji dəyişikliklərə görə mühüm əhəmiyyət daşıyır; bu göstəricilər, adətən, normal diapazonda qalır və 100 BV/dl-ə qədər yüksələ bilər [1]. Təhlükəsiz vaginal doğuş üçün FVF və VIII faktoru səviyyələri 50 BV/dl-dən yuxarı olmalıdır. Kesar kəsiyi əməliyyatı zamanı FVF səviyyəsi 50 BV/dl-dən, VIII faktoru səviyyəsi isə (xüsusilə 1-ci tip xəstəlikdə) 80 BV/dl-dən yüksək olmalıdır; lakin BV-nin 2 və 3-cü tiplərində bu göstərici 100 BV/dl-dən yuxarı olmalıdır [1].

Xəstəliyin intranatal fazasında müalicəyə göstərişlərə desmopressinin 0,3 mkg/kq (maksimal doza: 25–30 mkg) damar daxili yeridilməsi və ya 300 mkg buruna tətbiqi daxildir; preparatın pik təsiri yeridildikdən 30–90 dəqiqə sonra yaranır və onu hər 12–24 saatdan bir təkrarlamaq lazımdır [1, 12].

Bu vəziyyətin yaxşılaşdırılması üçün traneksam turşusu (1000 mq gündə üç dəfə [1, 6]) və ya epsilon-aminokapron turşusu (100–150 mq/kq) kimi antifibrinolitiklərin tətbiqi tövsiyə olunur; sonuncu halda epsilon-aminokapron turşusu 10–15 mq/kq/saat dozada damardan yeridilməlidir [1, 6]. Bu preparatlar uşaqlıq atoniyası nəticəsində yaranan doğuşdan sonrakı qanaxmalarda göstərilmişdir.

Doğuş zamanı alətlərlə müdaxilədən çəkinmək çox vacibdir, çünki bu xəstəliyin genetik irsiyyəti ilə əlaqədar olaraq ana və uşaqda qanaxma riski artır [9]. Bu hallarda genetik məsləhətləşmə (konsultasiya) aparılması tövsiyə olunur.

Aktiv doğuş fazası zamanı oksitosinin rutin tətbiqi FVX olmayan qadınlarda olduğu kimi standart mamalıq protokollarına uyğun ola bilər. Lakin desmopressinlə eyni vaxtda istifadəsi zamanı hipoatremiya riskinin artması səbəbindən ehtiyatlı olmaq lazımdır [1].

Doğuşdan sonra FVF və VIII faktorunun plazmadakı səviyyələri azalır və təxminən doğuşdan üç həftə sonra baza göstəricilərinə qədər enir. Beynəlxalq Tromboz və Hemostaz Cəmiyyəti FVX-li qadınlarda hamiləlik dövrünün idarə olunmasına dair mövcud klinik təcrübəni qiymətləndirmək məqsədilə tibb xidmətləri göstərən mütəxəssislər arasında beynəlxalq sorğu keçirmişdir. Antenatal müşahidə, perinatal idarəetmə və doğuşdan sonrakı protokollar arasında fərqlər aşkar edilmişdir [13, 14]. Bu sorğunun nəticələrinə əsasən, doğuşdan sonrakı laborator nəzarət üçün əsasən FVF aktivlik testi, bu faktorun antigen səviyyəsinin təyini və VIII faktoru analizi istifadə olunmuşdur.

Antenatal anemiya doğuşdan sonrakı qanaxma ilə əlaqələndirilir; hemoglobin səviyyəsi 9 g/dl-dən aşağı olduqda ciddi doğuşdan sonrakı qanaxma riski (>2) artır və qan köçürülməsini tələb edə bilər. Bundan əlavə, hemoglobin səviyyəsi 7 g/dl-dən aşağı olan ağır antenatal anemiya doğuşdan sonrakı qanaxma riskini on dəfə artırır [13]. Araşdırmalar göstərmişdir ki, ağır anemiya oksigenizasiyanın azalması səbəbindən miometriumun yığılma qabiliyyətinə mənfi təsir göstərə bilər və bu da uşaqlıq atoniyası ehtimalını artırır; lakin anemiyanın doğuşdan sonrakı qanaxma riskini artırmasının dəqiq mexanizmləri hələ də qeyri-müəyyəndir. Amerikanın Mama-ginekoloqlar Kolleci (ACOG) tərəfindən son rəhbər tövsiyələrə əsasən, anemiya üçün ilk trimestrdə və hamiləliyin 24–28-ci həftələrində təkrar skrininq tövsiyə olunur və bütün hamilə qadınlara aşağı dozalarda dəmir qəbul etmək məsləhət görülür [14,15].

2021-ci il FVX tövsiyələrində FVX-li qadınlarda erkən (doğuşdan sonra 24 saat ərzində 1000 ml-dən çox qan itkisi və ya hemodinamik sabitliyi poza biləcək hər hansı qan itkisi) və gecikmiş doğuşdan sonrakı qanaxma (doğuşdan sonra 24 saat və 6 həftə ərzində tipik lohiya itkisini aşan, tibbi qiymətləndirmə və ya müdaxilə tələb edən və ya doğuşdan sonra 6 həftədən çox davam edən qan itkisi) anlayışları təqdim edilmişdir ki, bu, klinik təcrübə və tədqiqatlar üçün mühüm nailiyyətdir [16]. Doğuşdan sonrakı qanaxmaların diaqnostikasına vahid yanaşma FVX-li hamilə qadınların həm aşkar edilməsini, həm də idarə olunmasını yaxşılaşdırmağa yönəlib [16, 17].

Qadınlarda gecikmiş doğuşdan sonrakı qanaxma riski səbəbindən, xəstəxanada 5–7 gün ərzində diqqətli müşahidə aparmaq son dərəcə vacibdir. Farmakoloji müalicəyə desmopressin və ya FVF/VIII faktoru kombinə olunmuş preparatlar daxil edilməlidir, çünki bu dövrdə FVF tükənməsi daha nəzərəçarpandır və doğuşdan sonra ilk 48 saat ərzində akusher qanaxma riskini artırır. Bu qadınlar mümkün hemodinamik sabitlik pozulması səbəbindən reanimasiya və ya intensiv terapiya şöbələrində diqqətlə izlənməlidir [1].

Antenatal dövrdə, xüsusilə üçüncü trimestrdə, doğuşun planlaşdırılması məqsədilə VIII və FV faktorları diqqətlə nəzarətdə saxlanılmalıdır [6], çünki prokoaqulyant faktorların səviyyəsinin artması ilə əlaqəli patofizioloji dəyişikliklər adətən normal diapazonda qalır [1] və 100 BV/dl səviyyəsinə qədər yüksələ bilər [6].

Doğuşlar hematologiya və qan köçürülməsi şöbələrinin mövcud olduğu ixtisaslaşmış mərkəzlərdə aparılmalıdır, əvvəlcədən FVF, VIII faktoru, uterotoniklər, antifibrinolitiklər və qan preparatlarının mövcudluğu təmin edilməlidir.

Qadınların vaginal yolla doğuş etməsi üçün FVF və VIII faktoru səviyyələri 50 BV/dl-dən yuxarı olmalıdır; Kesar kəsiyi əməliyyatı planlaşdırılan qadınlarda FVF səviyyəsi 50 BV/dl-dən, VIII faktoru isə 1-ci tip xəstəlikdə 80 BV/dl-dən yüksək olmalıdır [1]. Lakin 2-ci və ya 3-cü tip xəstəlikdə qadınlarda FVF-nun hədəf səviyyəsi daha yüksək olmalı, 100 BV/dl-dən yuxarı səviyyəyə çatmaq məqsəd qoyulmalıdır

[1]. Əgər səviyyələr normal diapazondadırsa, farmakoloji profilaktika tələb olunmur.

Bu xəstəliyin intranatal fazasında istifadə üçün təsvir olunan müalicə üsullarına desmopressinin damar daxili 0,3 mkg/kq dozada (maksimal doza: 25–30 mkg) və ya 300 mkg intranazal yeridilməsi daxildir; preparatın pik təsiri yeridildikdən 30–90 dəqiqə sonra yaranır və onu hər 12–24 saatda bir tətbiq etmək lazımdır [1]. Lakin bu preparat 1-ci tip BV-də birinci xətt terapiyası kimi təsnif edilir, 3-cü tip xəstəlikdə isə onun effektivliyi sübut edilməyib [5].

Həmçinin FVF və VIII faktoru ilə 40–60 BV/kq şok doza şəklində müalicə təsvir edilmişdir (FVF/VIII faktoru 500/200 BV 10/ml formasında). Pasiyent əvvəl FVF və VIII faktoru ilə effektiv cavab almış olduğundan, hamiləlik dövründə eyni müalicə xətti davam etdirilir. Bu müalicə üsullarını traneksam turşusu (1000 mg gündə üç dəfə) və ya epsilon-aminokapron turşusu ilə 100–150 mg/kq şok doza və sonra 10–15 mg/kq/saat infuziya şəklində antifibrinolitiklərlə gücləndirmək mümkündür [1].

Doğuş zamanı alətlərlə müdaxilədən çəkinmək çox vacibdir, çünki bu xəstəliyə genetik meyllilik səbəbindən ana və yenidoğulmuşda qanaxma riski artır [9]. Belə qadınlara antenatal genetik məsləhət verilməsi tövsiyə olunur.

Aktiv doğuş zamanı oksitosinin rutin istifadəsi BV olmayan qadınlarda standart doğuş protokoluna uyğun ola bilər; lakin desmopressinlə eyni vaxtda tətbiq edildikdə hipoatremiya riskinin artması səbəbindən diqqətli olmaq lazımdır [5].

Qadınlarda gecikmiş doğuşdan sonrakı qanaxma riski nəzərə alınaraq, xəstəxanada 5–7 gün ərzində diqqətli müşahidə aparmaq vacibdir; bu müddətdə desmopressin və ya FVF/VIII faktoru kombinə olunmuş preparatlarla farmakoloji müalicə tətbiq edilməlidir, çünki bu dövrdə FV-nin tükənməsi daha nəzərəçarpandır və doğuşdan sonra ilk 48 saat ərzində akusher qanaxma riskini artırır [9]. Bu qadınlar mümkün hemodinamik sabitlik pozulması riskini nəzərə alaraq intensiv terapiya və ya reabilitasiya şöbələrində diqqətlə izlənməlidir.

